**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏLİYEV VÜQAR ZİFƏR OĞLU**

# MÜASİR DÖVRDƏ XARİCİ KİV-DƏ İNFORMASİYA İLƏ MANİPULYASİYA VƏ ONUN AZƏRBAYCAN İNTERNET MEDİASINA TƏSİRİ

İxtisas 5720.01 – Jurnalistika

**Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## AVTOREFERATI

**BAKI – 2017**

Dissertasiya Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi**: **Şamil Qiyas oğlu VƏLİYEV**
*filologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər: Cahangir Əbdüləli oğlu MƏMMƏDLİ**
*filologiya üzrə elmlər doktoru, professor*

**Elçin Əli oğlu MEHRƏLİYEV**
*filologiya üzrə elmlər doktoru, professor*

**Rövşən Raqif oğlu MƏMMƏDOV**
*filologiya üzrə elmlər doktoru*

**Aparıcı müəssisə: Bakı Slavyan Universiteti,**
**Jurnalistika kafedrası**

Müdafiə “____» ___________ 2017-ci il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaların müdafiəsini keçirən D.02.181 Dissertasiya şurasının iclasında кечириляъяк.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2017-ci ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının**
**elmi katibi, filologiya üzrə**
**elmlər doktoru, professor: T.H.HÜSEYNOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

## GİRİŞ

**Mövzunun aktuallığı.** Sürətlə qloballaşan müasir dünyanın beynəlxalq münasibətlər sistemində informasiya inkişafın hərəkətverici qüvvəsinə çevrilmişdir. Yeni dünya nizamında mass-medianın elmi-nəzəri və praktik konsepsiyasını araşdıran tədqiqatlarda belə bir fikrə tez-tez rast gəlmək olur ki, hazırda dünyanın aparıcı dövlətlərinin siyasətini məhz informasiya formalaşdırır. İnformasiya bütünlükdə cəmiyyətin həyatı, o cümlədən dövlət, onun daxili və xarici siyasəti, beynəlxalq əlaqələri ilə bağlı bir məsələdir. İnformasiya və kommunikasiya vasitələrinin dünya miqyasında geniş yayılması qloballaşma dövründə daha da sürətlənmiş, cəmiyyət və fərdlər arasında interaktiv əhatə dairəsinin yaranmasına səbəb olmuşdur.

XX əsrin axırları və XXI əsrin əvvəllərində dünyada baş verən qloballaşma prosesləri bütün sahələrə olduğu kimi, jurnalistika sahəsinə də güclü təsir göstərdi və ənənəvi forma və məzmunun dəyişməsinə gətirib çıxartdı. Kütləvi informasiya vasitələrində çoxdan formalaşmış texnoloji proseslər yerini daha müasir proseslərə verməklə, medianın interaktivliyini artırmış oldu. İnternet informasiya əldə olunması prosesində zaman və məsafəni aradan qaldırdı. İnformasiyanın toplanmasının, işlənib hazırlanmasının, saxlanmasının və yayılması prosesinin yeni formaları, müasir rəqəmsal texnologiyaların tətbiqi, redaksiya kollektivlərinin idarə edilməsi sxemlərinin dəyişdirilməsi və s. KİV-in yeni keyfiyyət kəsb etməsi, cəmiyyətdə onların rolunun güclənməsi ilə nəticələndi.

Yeni dünya jurnalistikası çoxcəhətli olmasına rəğmən, inkişafının ümumi meylləri mövcuddur və son dərəcə vacib olan milli xüsusiyyətlər qorunub saxlanır. Mətbuatın, radio və televiziyanın daha da kommersiyalaşdırılması, ən yeni texniki nailiyyətlərin hər yerdə tətbiq edilməsi Şərqi və Mərkəzi Avropa ölkələrinin, Postsovet respublikalarının KİV-i qarşısında çox mürəkkəb vəzifələr qoyur. İnkişaf etməkdə olan ölkələrdə modern proseslər müxtəlif formalarda baş verir ki, bu da öz növbəsində kütləvi informasiya və kommunikasiya vasitələrinin inkişafına, tətbiqinə ciddi təsir göstərir.

Müasir cəmiyyət çoxyönlü və çoxçeşidli informasiya kanallarına, çox zəngin və əhatəli informasiya ehtiyatlarına malikdir. Cəmiyyətin hər bir üzvü informasiya almaq, ondan bəhrələnmək və ona öz şəxsi

münasibətini bildirmək imkanı qazanmışdır. Qloballaşma dövründə istər dövlət siyasətini, istərsə də dünya və regional səviyyəli iqtisadi və yaxud sosial tədbirləri, habelə kommersiya fəaliyyətlərini informasiyasız təsəvvür etmək mümkün deyildir. Cəmiyyət və onun ayrı-ayrı təbəqələrinin sosial vəziyyətinin öyrənilməsində və yaxud konkret sahələrdə inkişaf perspektivlərinin müəyyənləşdirilməsində mövcud olan fikir müxtəlifliyinin aydınlaşdırılmasında da informasiyadan bəhrələnmə olduqca vacibdir. Buna görə də müasir dövrdə ictimai-siyasi, sosial-iqtisadi münasibətlər sistemində kütləvi informasiya vasitələrinin rolunun artmasına xüsusi diqqət yetirilir. Son dövrlərdə Qərbdə, Latın Amerikasında, Rusiyada və Asiya ölkələrində fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin fəaliyyəti də ardıcıl öyrənilir.

İnformasiya müharibələri və onların tətbiqi texnologiyalarının kökü qədim dövrlərə təsadüf edir. Tarix boyu informasiya müharibəsi və informasiya təcavüzü bu və ya digər formada hər zaman mövcud olmuşdur. Ən qədim tarixi və dini kitablarda belə hadisələr insanlar arasında informasiya müharibələrinin və təcavüzlərinin üzərində qurulmuşdur. Fiziki müharibə etmədən informasiya müharibəsi aparmaq olur, amma informasiya müharibəsi olmadan fiziki müharibə aparılmır. Başqa sözlə desək, fiziki müharibə aparılarkən, eyni zamanda onun tərkib hissəsi kimi informasiya müharibəsinin aparılması zəruridir.

Yaşadığımız XXI əsr kəskin ziddiyyətləri ilə zəngin olan qarışıq, «mədəni dünya»nı özündə təcəssüm etdirməkdədir. Zahirən bəzəkli görünən bu dünya, öz acımasız qanunları ilə maraqlar və iddialar üzərində qurulmaqla yanaşı mənəvi dəyərlərin deqradasiyasına da səhnə olmaqdadır. Mənəvi-mədəni irsə etinasız münasibət təəssüf doğuracaq haldır və bu etinasızlıq xalqı öz tarixi yaddaşını itirməyə sürükləyə bilər. Nə yazıq ki, bu deqradasiyasının katalizatoru gündəlik həyatımızı bir anlıq olsun belə onsuz təsəvvür etmədiyimiz media – mətbuat, televiziya, radio və internetdir. İnsanın öz dəyərlərini itirərək, gözünü maddiyyata və ambisiyalarına çevirməsində, onun öz daxili aləmini çirkləndirməsində medianın rolu böyükdür. Kütləvi informasiya vasitələrinin necə böyük bir gücə malik olması barədə söhbət açmaq yersiz olardı. KİV bu gün bütünlüklə ayrı bir dünyadır və bu dünya öz sosial-psixoloji təsiri mahiyyəti ilə əvəzedilməz və müqayisəyəgəlməz dərəcədə böyük təsir gücünə malikdir. Bu gün kütləvi informasiya vasitələri bizim gündəlik həyatımızın tərkib hissəsinə çevrilib. Çünki onsuz həyatımızın hansı istiqamətdə axın edəcəyini düşünmək qeyri-mümkündür. Bu, günümüzün reallığıdır. Lakin gəlin bir anlıq təsəvvür

edək: nəinki gündəlik iş rejimimizə, hətta şüurlarımıza və bilavasitə şəxsiyyət kimi inkişafımıza birbaşa təsir etmək gücünə malik KİV düzgünlük, vətənpərvərlik, demokratiya və insan hüquqlarına hörmət etmək əvəzinə, zorakılığı, milli diskriminasiyanı, cəmiyyətin bir çox eybərcərliklərini qabardır və bir növ bu eybəcərliklərin təbliğatçısına çevrilir. O zaman istər cəmiyyətin, istərsə də ayrı-ayrı fərdlərin müsbət yöndə inkişafından danışmağa dəyərmi?

Müasir jurnalistkanın dinamik inkişafı və informasiya məkanının qloballaşması dünyanın istənilən nöqtəsinə öz təsirini göstərib. Mətbuat, televiziya və radio, multimedia və internet şəbəkələri millionlarla insanın evinə girməkdədir. İnformasiya axını ictimai proseslərin idarə edilməsində əhəmiyyətli rıçaqlardan birinə çevrilib. Və bütün bunlarla yanaşı qeyd edilməlidir ki, güclülər informasiyanın toplanması, saxlanması, işlənməsi, yayılması və istehsalı proseslərində də öz qayda və qanunlarını diqtə edirlər. Lord Biverbrukun bir zamanlar dediyi kimi, «Mən qəzeti təbliğat aparmaq üçün nəşr edirəm, başqa məqsədlər üçün yox».

Bu gün Azərbaycana qarşı da informasiya müharibəsi aparılmaqdadır. Mediamız gündəlik olaraq xarici KİV-lərin informasiya manpulyasiyasına məruz qalır, informasiya məkanımıza və təhlükəsizliyimizə təhdidlərlə üzləşirik. Məhz bütün bu amillər mövzunun hansı dərəcədə bizim üçün aktual və vacib olduğunun ən başlıca göstəriciləridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də vurğuladığı kimi, ölkəmizə qarşı informasiya müharibəsi aparılır. Bu informasiya müharibəsində təbii ki, ən aktiv fəaliyyət ilk növbədə, erməni lobbisinin üzərinə düşür. Azərbaycanı qaralamaq, Azərbaycan reallıqlarını danmaq, Azərbaycanı geridə qalmış, antidemokratik ölkə kimi dünyaya təqdim etmək cəhdləri, ilk növbədə, erməni lobbisinin çirkin əməllərindən qaynaqlanır.

Bu baxımdan informasiya manipulyasiyasına qarşı tədbirlərin həyata keçirilməsi və eləcə də mediamızın bu kimi təsirlərə məruz qalmasının qarşısının alınması günümüzün ən vacib problemlərindəndir ki, mövzunun aktuallığı məhz bunda özünü göstərir. Vurğulamalıyıq ki, müharibə şəraitində olan ölkə üçün bu xüsulə önəmlidir və media, informasiya məkanına edilə biləcək hər hansı neqativ müdaxilələr, ilk növbədə ölkənin milli təhlükəsizliyinə ciddi təhdiddir.

**Mövzunun işlənmə dərəcəsi**. Azərbaycan internet mediasında informasiya təhlükəsizliyi, eləcə də informasiya manipulyasiyası problemi tam və kompleks şəkildə indiyədək elmi araşdırma predmeti

olmayıb. Ümumiyyətlə, bu sahədə tədqiqatların yox dərəcəsində olması, bir tərəfdən bizi aktual olması səbəbi ilə mövzunu daha dərindən öyrənməyə və araşdırmağa sövq etsə də, digər tərəfdən qarşımıza müəyyən çətinliklər çıxdı. İnformasiya təhlükəsizliyi, informasiya müharibəsi və manipulyasiyası mövzularının Qərb nəzəriyyəçiləri tərəfindən son 20 ildə sistemli şəkildə öyrənilməsini nəzərə alsaq, ölkəmizdə bu sahədə geniş tədqiqatın olmaması, müharibə şəraitində olan və qonşu düşmən dövlətin faktiki hərbi təcavüzü ilə üz-üzə olan ölkəmiz üçün müsbət məqam kimi qəbul edilə bilməz.

Mövzu üzərində tədqiqat aparılarkən, məhz bu səbəbdən Azərbaycanla bağlı olan hissələrin böyük əksəriyyəti bizim tərəfimizdən ilk dəfə elmi dövriyyəyə daxil edilməkdədir. Lakin bu dissertasiya işinin özü belə, bu sahədə mövcud olan bütün boşluqları aradan qaldırmağa iddialı deyil və ola da bilməz. Bildiyiniz kimi, jurnalistika dinamik şəkildə sürətlə inkişaf edən sosial-siyasi institutdur. Müasir informasiya texnologiyalarının sürətli inkişafı, bizim üçün son dərəcə aktual olan bu mövzunun müxtəlif aspektlərdən işlənməsini və yeni fikirlərin ortaya qoyulmasını zəruri edir.

Dissertasiya mövzusu üzərində tədqiqat apararkən Qərb nəzəriyyəçilərinin son dövrlərdə elmi dövriyyəyə buraxılmış nəzəri modellərindən bəhrələnmişik. Rusiyalı nəzəriyyəçilərdən Y. N. Zasurski, Y. B. Kaşlev, İ. S.Melyuxin, İ. N. Panarin, S. A. Mixaylov, O. Poptsov, D. S. Çereşkin, R. Qertsşteyn və başqalarının, qərb nəzəriyyəçilərindən Z.Bjezinski, H. Lassvell, U. Lippman, M.Maklyuen, P.Lazirsfeld, K. Hovland, A.Snayder, C. Braun, C. Donnel, D. Vilkoks və L. Noltun və başqalarının fikir və mülahizələrindən faydalanmaqla yanaşı geniş təhlil olunmuş, lakin problemə obyektiv tədqiqatçı-müəllif münasibəti saxlanılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsəd və vəzifələri problemin aktuallığı ilə bağlı müəyyənləşdirilmişdir. Dissertasiya işində qarşıya qoyulan əsas məqsəd müasir dövrdə informasiya texnologiyalarının inkişafı ilə informasiya məkanının qloballaşması prosesində baş verən yeniliklər nəticəsində informasiya təhlükəsizliyinə ən böyük təhdid olaraq görülən informasiya manipulyasiyası, müharibəsi probleminə baxış sərgiləmək və Azərbaycanla bağlı təhdidləri müəyyənləşdirmək, təhlil etməkdir. Bu zaman 2011-ci ildən başlayaraq yayımlanan materiallar əsas kimi götürülmüş və təhlilə cəlb edilmişdir. Məqsədə çatmaq üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsinə cəhd göstərilmişdir:

- Problemin respublikada ilk dəfə olaraq jurnalistikanın elmi-nəzəri və təcrübi nəticələrindən birgə istifadə əsasında araşdırılması;

- Qlobal informasiya məkanında baş verən yeniliklər fonunda, informasiyanın təsir dairəsinin son dərəcə genişlənməsi ilə bağlı elmi-nəzəri fikirlərin öyrənilməsi;

- İnformasiya təhlükəsizliyi anlayışına dünya nəzəriyyəçiləri tərəfindən elmi-nəzəri baxışın təqdim edilməsi, dünya praktikasında bununla əlaqədar həyata keçirilən tədbirlər, Azərbaycanda informasiya təhlükəsizliyinin təmin edilməsi ilə bağlı görülən işlərin təhlil edilməsi;

- İnformasiya manipulyasiyası, informasiyanın məqsədli istiqamətləndirilməsi və təhrifi, informasiya müharibəsi anlayışına müasir nəzəriyyəçilərin baxışlarının təqdim edilməsi, bununla əlaqədar olaraq informasiya manipulyasiyasının xarakterik xüsusiyyətlərinin və modellərinin təhlili;

- Qlobal informasiya məkanında informasiyaya nəzarət və “informasiya hakimi” funksiyasını yerinə yetirən media korporasiyalarının formalaşması və fəaliyyət istiqamətlərinə, informasiya məkanına birbaşa müdaxilələrinə münasibət və bu problemin araşdırılması;

- KİV-də informasiya ilə manipulyasiyanın əsas təsir istiqamətlərinin müəyyənləşdirilməsi və təqdim edilməsi;

- Azərbaycanın müstəqil internet mediasına, informasiya portallarına təsir nöqtələrinin müəyyənləşdirilməsi və təqdim edilməsi;

- Qərb mediasında Azərbaycanla bağlı informasiya ilə manipulyasiya halları və onun Azərbaycanın internet mediasına təsirinin araşdırılması və faktoloji materiallar əsasında təhlil edilməsi;

- İran mediasında Azərbaycanla bağlı informasiya ilə manipulyasiya halları və onun Azərbaycanın internet mediasına təsirinin araşdırılması və faktoloji materiallar əsasında təhlil edilməsi;

- Rusiya mediasında Azərbaycanla bağlı informasiya ilə manipulyasiya halları və onun Azərbaycanın internet mediasına təsirinin araşdırılması və faktoloji materiallar əsasında təhlil edilməsi;

- Ermənistanın Azərbaycanla bağlı informasiya ilə manipulyasiya halları və onun Azərbaycanın internet mediasına təsirinin araşdırılması və faktoloji materiallar əsasında təhlil edilməsi, Ermənistanın ölkəmizə qarşı apardığı informasiya müharibəsinin parametrlərinin tədqiq edilməsi.

**Araşdırmanın obyekti və predmeti**. Dissertasiya işinin obyekti müasir dövrdə xarici kütləvi informasiya vasitələrində informasiya ilə manipulyasiya və informasiya müharibəsi modelləri, informasiya təhlükəsizliyi problemi, predmeti isə Azərbaycanda informasiya təhlükəsizliyi, bu sahədə rəsmi dövlət səviyyəsində görülən tədbirlər, xarici KİV-də informasiya ilə manipulyasiyanın Azərbaycanın müstəqil internet mediası və informasiya portallarına təsiri, Azərbaycanın əleyhinə aparılan informasiya savaşı, buna qarşı mübarizə aparmağın metodologiyasının öyrənilməsi kimi məsələlərdir.

**Araşdırmanın xronoloji hüdudları** 2011-ci ildən 2016-cı ilədək olan dövrü əhatə edir. 2011-ci ildən başlayaraq son beş ildə müstəqil informasiya portalları və internet mediada yayımlanan materiallardan istifadə etməkdə başlıca məqsəd ən yeni faktoloji materialları elmi təhlilə və araşdırmaya cəlb etməkdir.

**Tədqiqat işinin elmi yeniliyi** günümüzdə Azərbaycanın müstəqil informasiya portalları və internet mediasının xarici təsirlərlə informasiya manipulyasiyasına məruz qalmasının araşdırılması ilə bağlıdır ki, tədqiqat prosesində qoyulmuş problem Azərbaycanın informasiya təhlükəsizliyinin ana xəttini təşkil edir.

Tədqiqat mövzusu Azərbaycan jurnalistikası üçün yenidir və burada Azərbaycan internet mediasında əks olunan materiallar geniş şəkildə tədqiqata cəlb edilmişdir. Tədqiqatın elmi yeniliyi problemin ölkə jurnalistikasında ilk dəfə müasirlik baxımından təhlili, eləcə də işin məqsədindən və qarşıya qoyulan vəzifələrdən irəli gəlir. Xarici KİV-in təsiri ilə Azərbaycan mediasında informasiya ilə manipulyasiya ilk dəfədir ki, tədqiqat problemi kimi götürülür. Eyni zamanda informasiya təhlükəsizliyi, qlobal informasiya məkanının formalaşması fonunda informasiya müharibələri, informasiya müdaxilələri və bunların Azərbaycan mediasına təsirləri, qlobal informasiya məkanında informasiya inhisarı problemi kompleks şəkildə ilk dəfə araşdırılır.

Burada:

- Müstəqil Azərbaycanın informasiya təhlükəsizliyi sahəsində gördüyü və planlaşdırılan işlər tədqiq edilir;
- Qlobal informasiya məkanının formalaşması fonunda informasiya üzərində nəzarət və inhisar problemi tədqiqat predmeti kimi götürülür;

- Faktoloji materiallar əsasında Azərbaycana qarşı aparılan informasiya müharibəsinin başlıca parametrləri və istiqamətləri araşdırılır;

- İnformasiya ilə manipulyasiyanın kütləvi informasiya vasitələrinə təsir istiqamətləri müəyyənləşdirilir;

- Qərb, İran, Rusiya və Ermənistan tərəfindən Azərbaycan internet mediasına təsir istiqamətləri tədqiq olunur və manipulyasiya halları faktoloji materiallar əsasında geniş şəkildə təhlil edilir.

**Dissertasiya işinin metodoloji əsasları** kimi beynəlxalq jurnalistika nəzəriyyəsində araşdırma metodlarından yararlanmışıq. Araşdırma prosesində mövzu ilə bağlı Qərb nəzəriyyəçilərinin fikirləri, eləcə də Azərbaycan Respublikasının Konstitusiyası, tədqiq olunan mövzu ilə bağlı Qanunlar və mövcud qanunvericilikdə olan müddəalar, müstəqil Azərbaycanın qurucusu, ümummilli lider H.Əliyev və Respublika Prezidenti İ.Əliyevin imzaladığı sərəncam və fərmanlar, beynəlxalq hüquqi aktlarda öz əksini tapmış sənədlər və müddəalar, yerli və beynəlxalq elmi konfransların materialları, eləcə də problemlə bağlı mütəxəssislərin əsərlərindən mənbə kimi istifadə edilmişdir.

Dissertasiyada tədqiqat metodları kimi tarixi yanaşma, sistemli təhlil, müqayisəli təhlil, kontent və ivent analiz, kompleks dialektik və elmi analizin bir sıra ümumi metodlarından, habelə instutsional təhlil metodundan istifadə olunmuşdur.

**Araşdırmanın empirik (təcrübi) bazasını** Azərbaycanın müstəqil internet mediası və informasiya portallarında son illərdə mövzu ilə bağlı yayımlanmış müxtəlif janrda materiallar təşkil edir. Onların sırasında Azərbaycan Respublikasının prezidenti cənab İ.Əliyevin və digər dövlət rəsmilərinin çıxış və müsahibələri, Qərb nəzəriyyəçilərinin mütəxəssis rəyləri əsas yer tutur. Tədqiqatın empirik bazasını təşkil edən göstərilənlərlə yanaşı, müəllifin uzun illər ərzində apardığı müşahidələr və praktik təcrübəsindən əldə edilən nəticələr də dissertasiya işində öz əksini tapmışdır.

**Müdafiəyə çıxarılan müddəalar**:

1. Yeni informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə qlobal informasiya məkanının formalaşması fonunda informasiya təhlükəsizliyi problemi günümüzün ən aktual probleminə çevrilib. Azərbaycanda ən yüksək səviyyədə bu məsələnin həlli ilə bağlı ciddi addımlar atılsa da, problem tam şəkildə həll edilmiş sayıla bilməz;

2. İnformasiyanın strateji əhəmiyyət daşıması səbəbi ilə ona nəzarət uğrunda rəqabət güclənməkdədir. XX əsrin əvvəllərindən formalaşan media korporasiyaları informasiyaya və eləcə də qlobal informasiya məkanına nəzarəti öz əllərində cəmləşdirərək inhisar yaratmaqla, dövlətlərarası münasibətlərdən başlayaraq bir çox sahələrə nüfuz və təsir etmək imkanları əldə etməkdədirlər;

3. İnformasiya texnologiyalarının inkişafı ilə informasiya müharibəsi problemi getdikcə daha da aktuallaşmaqdadır. Azərbaycan da Ermənistanın birbaşa və eləcə də bəzi beynəlxalq dairələrin dolayısı yolla informasiya müharibəsi ilə üz-üzədir (bunu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz nitqlərində də vurğulayır);

4. İnformasiya ilə manipulyasiya birbaşa ictimai şüura təsir etməklə, bir çox problemlərə yol açır və onun aradan qaldırılması üçün media və jurnalistlər xüsusilə diqqətli olmalıdır. Eyni zamanda manipulyasiya nöqtələri dəqiq şəkildə araşdırılmalı, təhlil edilməli və bunun qarşısının alınması metodları işlənib hazırlanmalıdır;

5. Azərbaycan internet mediası bir sıra informasiya manipulyasiyası hallarının başlıca hədəfi olaraq seçilir. İnternet sərhədsizdir və yaşından asılı olmayaraq cəmiyyətin hər fərdinə təsir etmək imkanına və gücünə malikdir;

6. Media məkanımız yalnız Ermənistan deyil, eyni zamanda İran, Rusiya və Qərb mediası tərəfindən də təsir və manipulyasiya hallarına məruz qalır. Bu təkcə özünü həmin ölkələrin ərazilərindən yayımlanan media orqanları vasitəsi ilə göstərmir, eyni zamanda, ölkə daxilində yaradılan xüsusi media orqanları vasitəsi ilə də büruzə verir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti** tədqiq edilən problemin aktuallığından və elmi yeniliyindən qaynaqlanır. 21-ci əsrin əvvəllərində informasiya məkanının qloballaşması və sərhəd tanımaması fonunda medianın və informasiyanın əhəmiyyəti və gücü artmaqdadır. Müasir dövrdə informasiya ən böyük təsiredici və dağıdıcı gücə malik silah kimi istifadə edilməkdədir. Məhz bu səbəbdən "informasiya çirkliliyi", "informasiya manipulyasiyası", "informasiya təhlükəsizliyi", "informasiya müharibəsi" kimi anlayışlar getdikcə daha böyük praktik əhəmiyyət qazanır və problem olaraq ciddi araşdırma və müzakirə predmeti olaraq götürülür. Məhz bu səbəbdən bundan irəli gələn vəzifələrin tədqiqi nəzəri və praktik əhəmiyyət kəsb edir.

Tədqiqatın gedişində toplanmış materiallardan və əldə olunmuş nəticələrdən ictimai-siyasi ümumiləşdirmələrin aparılmasında, media və informasiya təhlükəsizliyi sahəsinə dair proqramların həyata

keçirilməsində, informasiya sərhədlərinin qorunması istiqamətində görülə biləcək tədbirlər zamanı, eləcə də mediada çalışan jurnalistlər peşə fəaliyyətləri zamanı elmi-nəzəri və praktik baxımdan istifadə edə bilərlər. Tədqiqat işindən və bu sahədəki araşdırmalarımızdan media mənsublarının və KİV nümayəndələrinin faydalanması ilə yanaşı, informasiya təhlikəsizliyi və informasiya manipulyasiyasi hallarının aradan qaldırılması, eləcə də media işinin təşkilində də istifadə oluna bilər. Əsər jurnalistika fakültələrinin tələbələri, beynəlxalq münasibətlər üzrə tədqiqat aparan mütəxəssislər, informasiya və dövlət təhlükəsizlik sahələrində çalışanlar üçün də faydalı vəsait sayıla bilər. Tədqiqatın nəticələrindən ictimai-siyasi istiqamətli əsərlərdə, mətbuatın müasir dünya siyasətində rolu ilə bağlı mövzuların tədrisində, humanitar sahədə araşdırmalar aparan mütəxəssislərin elmi işlərində, eləcə də müvafiq kurslarda, mühazirə və seminarların aparılmasında istifadə edilə bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin Beynəlxalq jurnalistika kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları və elmi nəticələri BDU-nun aspirant və gənc tədqiqatçılarının elmi konfranslarında edilmiş məruzələrdə, habelə müəllifin mövzu ilə bağlı Azərbaycanda və xaricdə nəşr olunan müxtəlif elmi-nəzəri jurnallarda dərc edilmiş məqalələrində öz əksini tapmışdır. Çap olunmuş məqalələr və monoqrafiya dissertasiya işinin fəsillərini və ümumi məzmununu əhatə edir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, dörd fəsil (on dörd yarımfəsil), nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın «Giriş» hissəsində qloballaşma dövründə informasiyanın təsir gücünün və həmçinin ictimai-siyasi, sosial-iqtisadi münasibətlər sistemində kütləvi informasiya vasitələrinin rolunun artmasına diqqət şəkilir. Bildirilir ki, cəmiyyət və onun ayrı-ayrı təbəqələrinin sosial vəziyyətinin öyrənilməsində və yaxud konkret sahələrdə inkişaf perspektivlərinin müəyyənləşdirilməsində mövcud olan fikir müxtəlifliyinin aydınlaşdırılmasında da informasiyadan bəhrələnmə olduqca vacibdir. Qeyd edilir ki, istər dövlət siyasətini, istərsə də dünya və regional səviyyəli iqtisadi və yaxud sosial tədbirləri, habelə kommersiya fəaliyyətlərini informasiyasız təsəvvür etmək mümkün deyildir.

«Giriş» hissəsində həmçinin mövzunun aktuallığı əsaslandırılmış, işin metodologiyası, məqsəd və vəzifələri açıqlanmış, mövzunun işlənmə dərəcəsi, dissertasiyanın elmi yeniliyi, araşdırmanın obyekti və predmeti, mövzunun nəzəri və təcrübi əhəmiyyəti, araşdırmanın empirik (təcrübi) bazası, xronoloji hüdudları, işin quruluşu və aprobasiyası haqqında məlumat verilmişdir.

Dissertasiyanın **"XX əsrdə informasiya ilə manipulyasiya problemini doğuran başlıca səbəblər"** adlanan birinci fəslində qlobal informasiya məkanının formalaşması və media sektorunda kommersiyalaşma və inhisar manipulyasiya problemini doğuran başlıca səbəblər olaraq nəzərdən keçirilir, Azərbaycan mediasının qlobal informasiya məkanina transformasiyası problemi tədqiqat predmeti kimi götürülür.

Birinci fəslin birinci yarımfəsli ***"Qlobal informasiya məkanının formalaşması informasiya ilə manipulyasiya problemini doğuran başlıca səbəblərdən biri kimi"*** adlanır. Qlobal informasiya məkanı "dövlət sərhədlərindən asılı olmayan, kütləvi informasiya vasitələri tərəfindən tənzimlənən və birbaşa informasiyanın alınmasından, ötürülməsindən, emalından və saxlanmasından asılı olan müxtəlif istiqamətli informasiya axınları toplusu"dur. Vahid informasiya məkanının mövcudluğu mass-medianın qarşılıqlı fəaliyyəti, birləşməsi və qarşılıqlı nüfuz etməsi ilə əlaqəlidir. Bunun nəticəsində polisentrik informasiya məkanı yaranır, onun əsas komponentləri milli və transmilli media korporasiyaları olur. Bu strukturların fəallığı ilə biz, mass-medianın bir sıra inkişaf istiqamətlərini, xüsusən, inhisarlaşmanı əlaqələndiririk.

Qlobal informasiya – kommunikasiya texnologiyaları bazarı qlobal televiziyaya, qəzetlərin, jurnalların, informasiya agentliklərinin dünya auditoriyasına yol açmasını təmin edir və bununla da yeni qlobal informasiya mühiti yaradır. Bu gün qlobal media sistemləri milli sistemlərin əhəmiyyətini artırır, onları həm birləşdirir, həm də informasiya mübadiləsi üçün yeni imkanlar açırlar. Qloballaşmadan danışarkən təkcə informasiyaya geniş yolu deyil, həm də müasir cəmiyyətdə informasiyanın yeni rolunu nəzərdə tuturlar. Müasir insanın yaşadığı yeni mühiti isə çox vaxt informasiya cəmiyyəti adlandırırlar. Bəzən belə bir təklif irəli sürülür ki, «kapitalizm» termini əvəzinə «informasionalizm» termini işlədilsin[1].

Qlobal informasiyaya yolun açıq olması vətəndaşlar arasında beynəlxalq səviyyədə fikir mübadiləsinin inkişafı üçün imkanlar yaradır. Milli ictimai sahələr dünya informasiya mühitinə qoşulur və ictimai sahənin yeni qlobal meydanını yaradır. Bu, müasir şəraitdə çox vacibdir və biz bunu qloballaşmaya münasibətin timsalında görə bilərik. Axı, heç kəsə sirr deyildir ki, əhalinin böyük bir hissəsi qlobal informasiyaya və qloballaşmaya yolun olmasını alqışlayır. Eyni zamanda belə bir qorxu da vardır ki, qloballaşma milli mədəniyyətlərin zəifləməsinə, iqtisadi cəhətdən güclü strukturların, ən əvvəl, iri transmilli korporasiyaların və dünya inhisarlarının cəmiyyətə təsirinin güclənməsinə gətirib çıxarır. Burada iki hərəkat – qlobalizm və antiqlobalizm mövcuddur. Onların nədəsə oxşarlıqları vardır. Hər iki meylin dünya məkanında mövcud olması oxşarlıqlarından xəbər verir. Bu isə media sahəsində yeni istiqamətlərim inkişafına kömək edir.

İnformasiya sahəsində qloballaşma proseslərinin inkişafına baxmayaraq, soyuq müharibə başa çatdıqdan sonra beynəlxalq jurnalistika özünü aydın şəkildə büruzə verən böhran vəziyyətinə düşdü. Buna bir çox media təşkilatlarının xarici ölkələrdə müxbir məntəqələrinin sayının xeyli azalması, KİV-də ikinci mənbədən əldə edilmiş xarici informasiyanın istifadəsinin genişlənməsi, qəzet səhifələrində beynəlxalq həyata dair bölmə və rubrikaların həcminin, TV və radioda müvafiq verilişlərin azalması – tamamilə yox olmaya qədər – dəlalət edir. Belə ki, əgər 30 il əvvəl beynəlxalq informasiya ABŞ teleşirkətlərinin xəbərlər proqramına ayırdığı efir vaxtının 45%-ni tuturdusa, XX-XXI əsrlərdə

---

[1] Засурский Я.Н. Глобальное информационное пространство: новые границы. Вестник МГУ. Серия 10: Журналистика. №5, 2003, с. 6.

onun payı 15,5%-ə qədər azaldı. Bir çox ölkələrdə beynəlxalq mövzuda nəşrlərin ümumi peşəkarlıq səviyyəsinin xeyli azalması müşahidə olunur.

Birinci fəslin ikinci yarımfəsli ***“Media sektorunda kommersiyalaşma və inhisar informasiya ilə manipulyasiya problemini doğuran başlıca səbəblərdən biri kimi”*** adlanır. Yarımfəsildə bildirilir ki, müstəqil media kommersiya tipindədir. Kommersiya yalnız kiməsə, hansısa qrupa, ya partiya maraqlarına xidmət etməyi sevmir. KİV-də kommersiyalaşma cəmiyyətin bütün qatlarına xidmət etməyi öyrədir. O, jurnalisti dəqiq, qərəzsiz və vicdanlı olmağa məhkum edir. “Washington Post” qəzetini 1933-cü ildə satın alan Meyer bu qəzetin prinsiplərini dərc edərkən yazırdı: “Qəzet öz sahibinə deyil, cəmiyyətə xidmət etməlidir”.

Bazar şəraitində qəzet və jurnalların nəşr edilməsi, yayım fəaliyyəti get-gedə daha çox informasiya sənayesi sahələrinə çevrilir, iş fəaliyyətinə xas olan tələblər və bazarın tələblərinə “bağlı” istehsal sxemləri, habelə, səmərəli menecment və marketinq standartları bu sənayeyə tam şəkildə şamil olunur. “Amerika xəbərlər sənayesi biznesdir”, Amerikanın xarici jurnalistlər Mərkəzi belə deyir. “Böyük Avropa”da kütləvi informasiya vasitələrini də getdikcə daha çox “media sənayesi”, jurnalist yazılarını isə - “media məhsulu” adlandırırlar və onlara əmtəə, jurnalistlərə və KİV-ə isə informasiya bazarına mal çıxaranlar kimi baxırlar.

Media sektorunun kommersiyalaşmasının artdığı və kütləvi mətbuatın dövlət tərəfindən tənzimlənməsinin azaldığı bir şəraitdə jurnalistlərin və KİV-in fəaliyyətinin iqtisadi tənzimlənməsi həlledici əhəmiyyət qazanır. Bu tənzimləmə, əsasən, bazar mexanizmi ilə həyata keçirilir. Məhz bazarın təzyiqi rəqabət mühitində fəaliyyət göstərən kütləvi informasiya vasitələri və jurnalistlərin prioritetlərini, “oyun qaydalarını” müəyyən edir: onlar ya bazar konyukturası, marketinq qaydaları ilə hesablaşmalıdırlar ki, öz mövcudluqlarını və kommersiya uğurlarını təmin etsinlər, ya da öz fəaliyyətlərini bu konyukturadan, kommersiya istismarından tamamilə kənarda qurmalıdırlar.

Kəskin rəqabət münasibətlərinin hökm sürdüyü bazar mühitində daha çox insanın diqqətini cəlb etməyin, kommersiya uğurunun, reklamdan gələn gəlirlərin sabitliyinin qorunub saxlanması mühüm əhəmiyyət kəsb edir. Reklam xidmətləri dəyərinin meyarı olan yüksək reytinqi təmin etmək üçün kütləvi informasiya vasitələri və jurnalistlər ön plana çıxır. Redaktorlar və jurnalistlərin “reytinq xəstəliyinə” tutulduqları şəraitdə bazarın tələbləri qanunvericilik hüququnu öz əlinə keçirir. Daim yüksək reytinq əldə etmək, bazarda üstün mövqeləri zəbt etmək səyləri jurnalistləri mürəkkəb, mübahisəli və “narahat” məsələləri

işıqlandırmaqdan yayındırır. Bu növ nəşr və verilişlərin geniş auditoriyanı özünə cəlb etmək iqtidarında olmaması, belə mövzulardan imtina etməyə məcbur edən gizli, amma effektiv məhdudlaşdırıcı sistemi meydana gətirir. Bu sistem auditoriyanın istəyinə cavab verməyən mövzu və əsərləri tamamilə və ya qismən məhdudlaşdırır.

Getdikcə daha da sərtləşən mübarizə şəraiti, müasir informasiya biznesinin beynəlmiləlləşdirilməsi birliklərin və media konsernlərin daha da böyüməsinə təkan verir. Şimali Amerikanın informasiya sənayesinin inhisara alınması proseslərinin tədqiqatçıları mass-media sahəsində hakim olan 50 ən iri korporasiyanın siyahısını təqdim ediblər. ABŞ-dan olan digər ekspert N.Solomonun hesablamalarına görə, dünya media biznesi sahəsində əsas rol oynayan ən iri konsernlərin sayı get-gedə azalıb. Müasir dövrümüzdə dünya informasiya bazarında cəmi altı nəhəng konsern (böyük altılıq) hakim mövqe tutur. "Böyük altılıq" qrupunun altı üzvündən beşinin mənzil-qərərgahı ABŞ-da və ən böyük media konsernlərindən (ölçüsünə görə üçüncü) yalnız birinin baş ofisi Almaniyadadır.

Fəslin üçüncü yarımfəsli ***"Azərbaycan qlobal informasiya məkanında"*** adlanır. Bölmədə adından da göründüyü kimi ölkə jurnalistikasının qlobal informasiya məkanına inteqrasiyası problemi öz əksini tapır.

Son illərdə Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması sahəsində müəyyən addımlar atılmış, bir sıra sahələrdə bu texnologiyaların tətbiqində ciddi uğurlar qazanılmış və ümumiyyətlə, bu istiqamət dövlət siyasətinin prioritetlərindən birinə çevrilmişdir.

Ölkəmizdə dövlət quruculuğu, iqtisadiyyatın yaradılması, cəmiyyətin demokratikləşməsi, əhalinin rifahının yüksəldilməsi və insanın inkişafının təmin edilməsi istiqamətlərində çox şaxəli işlər görülür. Bu işlər eyni zamanda Azərbaycanın siyasi, hüquqi, iqtisadi, sosial və digər sahələrdə beynəlxalq əlaqələrin genişlənməsinə, qloballaşan dünyada etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmləndirilməsi xidmət edir və ölkənin müdafiə qabiliyyətinin artırılmasına, ərazi bütövlüyünün bərpa edilməsinə yönəlmişdir.

Ölkənin informasiyalaşdırılması yolu ilə informasiya cəmiyyətinin formalaşdırılması təşkilati, sosial-iqtisadi, elmi-texniki, texnoloji və ən başlıcası, siyasi amillərə malik olan mürəkkəb prosesdir, onun müvəffəqiyyətli həyata keçirilməsinə cəlb olunan siyasi-inzibati, maliyyə, insan, texniki və s. resuslardan səmərəli istifadə olunması, prioritetlərin

və fəliyyət istiqamətlərinin düzgün müəyyən edilməsini, görülən işlərin tənzimlənməsini və əlaqələdirilməsini tələb edir.

Müasir tələblər baxımından ölkədə informasiya və kommunikasiya texnologiyalarinin inkişaf səviyyəsi bütövlükdə dövlətin hərbi-siyasi və sosial-iqtisadi potensialının göstəricilərindəndir.Azərbaycan bu mənada istisna hal təşkil etmir və informasiya cəmiyyətinə kecid üçün ölkədə əlverişli şəraitin yaradılması Azərbaycan dövlətinin siyasi məqsədlərindən biridir.

Bu səbəbdən informasiya kommunikasiya texnologiyalarının tətbiq və inkişaf etdirilməsi sahəsində "İnformasiya ,informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda təsbit olunmuş dövlət siyasətinin həyata keçirilməsi üzrə milli strategiyası fəaliyyət planının olması çox vacibdir.

Dissertasiyanın ikinci fəsli **"KİV-də informasiya müharibəsi və informasiya təhlükəsizliyi problemi informasiya ilə manuipulyasiya kontekstində"** adlanır, üç yarımfəsildən ibarətdir. Fəsildə informasiya ilə manipulyasiya kontekstində KİV-də informasiya müharibəsi və informasiya təhlükəsizliyi problemləri tədqiqat predmeti olaraq götürülür.

İkinci fəslin birinci yarımfəsli "***İnformasiya müharibəsi probleminin tarixi və xarakteristikası"*** adlanır. Təbliğatın öyrənilməsi kommunikasiya nəzəriyyəsinin bir elm kimi öyrənilməsinin əsas tərkib hissəsidir. Bu sahənin bütün əsas heyəti bu və ya başqa dərəcədə hərbi əlaqə sferasında yetişmişlər. Çünki hərbi dövrdə hərbi heyət daxilindəki fərziyyələri təcrübədə həyata keçirmək daha asan idi. Bu sanki dəqiq praktiki əhəmiyyəti olmayan, lazımsız bir iş idi. Bu işlə məşğul olan alimlər, eyni zamanda həm əlaqə nəzəriyyəsinin yaradıcıları, həm də bu təbliğatın ilk araşdırıcıları idilər: N.Lassvell, P.Lazarsfeld və K.Hovland, E.Poçers və s.

Tanınmış alman generalı Karl Fon Klauzevitsin (1780-1831) məşhur kəlamına əsasən "Müharibə siyasətin başqa vasitələrlə davamıdır". Bu fikir artıq xeyli zamandır ki, ümumi qəbul edilmiş bir həqiqətə çevrilməkdədir. Hakimiyyət uğrunda mübarizə, hökmranliq etmək üçün gedən dinamik münasibətlər və özünə tabe etdirmək-sözsüz ki, ümumi sosial-psixoloji münasibətlər sferasına aiddir. Ona görə ki, bütün bunlar insanların bir-birinə müxtəlif təsirləri ilə müşaiyət olunur. Adi müharibə ilə (silahli mübarizə) informasiya müharibənin fərqi nədədir?

İnformasiya müharibəsi anlayışının 2 əsas anlamı var: Peşəkarların anlayışına görə, informasiya müharibəsində birinci uyğun mütəxəssislərin

olması, onların elmi biliklərə, xüsusi hazırlıqlara yiyələnmiş olmaları, ikinci informativ anlayışlara, insanlara təsir etmək üçün məqsədyönlü təsir qüvvəsinə malik olmaları nəzərdə tutulur.

İnformasiya müharibəsinin hədəfləri müharibə və sülh şəraitindən asılı olaraq dəyişə bilər. Sülh şəraitində başlıca hədəf əgər müdaxilə edən tərəfin əlverişli olan siyasi-iqtisadi-hərbi qərarlarını əks tərəfə qəbul etdirməsidirsə, müharibə şəraitində bu dövlət və hərbi idarəçilik sistemində nizamsızlıq yaratmaq məqsədi daşıyır.

*Sxem 2.1: İnformasiya müharibəsinin hədəfləri:*




Cəmiyyətdə sosial əhəmiyyətə malik texnoloji qaydalar kütləvi kommunikasiyalardan qaynaqlanır. Amerikalı professor Uilyam Hemson belə hesab edir ki, müxtəlif sosial qruplar bu və ya digər hadisələrin baş vermə səbəblərini cəmiyyətə öz yozumları ilə, özlərinin başa düşdükləri model üzrə təqdim edirlər[1]. U.Hemson kütləvi kommunikasiyaya aid öz modelini təklif edirdi və onu konstruktiv adlandırırdı. Bizim yüzillikdə o kommunikativ modelin bilavasitə 2 sələfini görürdü[2].

Birinci model-maksimal effekt adlanır. Araşdırıcılar bir zamanlar kommunikasiyaların uğurlu istifadəsi üçün, bu faktorları əsas götürmüşdülər:

---

[1] Gamson W. A. Media discourse and public opinion on nuclear power: a constructionist approach. American journal of sociology, 1989, N 1, p. 1-37

[2] Gamson W.A. The 1987 distinguished lecture: a constructionist approach to mass media and public opinion. Symbolic interaction, 1988, p. 161-174

1. I dünya müharibəsi zamanı kütləvi şüurları sistematik manipulyasiya edən təbliğatın uğuru. Yeri gəlmişkən rəqibinin uğurunun təsiri altında olan Hitler də bundan öz təbliğat işində istifadə etmişdi.

2. Sənayedə "public relations"-in meydana gəlməsi 1926-cı ilin konkret analizi, qəzetlər göstərirdi ki, birinci qəzetin məlumatlarının 57%-i, II qəzetin məlumatlarının isə 46%-i öz işlərinin bu sferanın mütəxəssislərinin işlərindən yararlanaraq görür.

3. Almaniyaya SSRİ-nin totalitar nəzarəti. Bunu nəzərə alaraq, araşdırıcılar belə nəticəyə gəlmişlər ki, kommunikasiya insana, dərisinin altına vurulan iynə kimi təsir edir, bunun qarşısını heç cür almaq olmaz.

İkinci model isə minimal effekt modeli adlanır. Bu, müharibədən sonraki dövrdə meydana gəlmişdi. Bu modeli formalaşdıran faktorları belə adlandırmaq olar:

1. Müəyyən şeylərin qavranması. İnsanlar informasiyanın hamısını deyil seçib özünə, öz fikrinə uyğun gələnini seçib götürür, qalanını isə rədd edirlər. Buna uyğun belə bir təcrübə keçirilmişdir. Belə ki, BMT haqqında bilgiləri Ohayo ştatının Sinsinatı şəhərində dəyişməyə çalışmışlar. Əgər bu kampaniyaya yaşlı nəslin 30%-i bu təşkilat haqqında heç nə bilmirdisə, əhalini BMT, haqqında braşuralarla, pamfletlərlə, plakatlarla və s.ilə hazırlayandan sonra, yarım il ərzində bu barədə heç nə bilməyənlər cəmi 28% təşkil edirdi[1].

2. İnsanın sosial molekul olaraq nəzərdən keçirilməsindən, fərdiləşmiş atom kimi baxılmasına keçid. II Dünya müharibəsi zamanı faşizmə qarşı baxışlar dəyişənə qədər mütəffiqlərin propaqandası davam etdi. Faşistlər qrup şəklində normalara, fərdi normalardan daha çox üstünlük verirdilər. Mütəffiqlər "Ordudan qalmaqla sən özünü xilas edirsən" təbliğatından, "ordudan qalmaqla sən ailəni xilas edirsən" təbliğatına keçdilər.

3. Seçkilər zamanı siyasi davranış. 60-cı illərdən seçki texnologiyasının araşdıranlar müqavimət göstərən publika fenomeninə diqqət yetirməyə başlamışdılar. O zaman belə nəticəyə gəlindi: seçkilərin fikirlərini dəyişmək olmaz. Buna nə pul, nə də mübarizə kömək edə bilər, ümid ancaq hələ son qərar qəbul etməyənlərə qalır. Bu 2 modeli-maksimal/minimal effekt modeli-mənbəyə diqqəti cəlb etmək (maksimal anlayış anlamında-hər şey mass-medianın əlindədir), ya da məlumatı

---

[1] Brown J.A.C. Techniques of persuasion. From propaganda to brainwashing. Harmondsworth: Penguin Books, 1963, s. 145

alana diqqəti yönəltmək kimi anlamaq olar (minimal model anlayışı zamanı problem elə bu olur) .

U.Hemson kommunikasiya prosesində realizə olunan bir sıra yeni ənənələrə əsaslanaraq özünün yeni kommunikativ modelini təklif edir. O mass-medianın, (kütləvi media) effektinin o qədər də nəzərə çarpan olmadığını hesab edərək aşağıdakı təklif hissələrini qeyd edir:

- "Günün ideyasını" nəzərə alaraq iş görmək, mass-medianın etdiyi kimi, insanlara həqiqəti öyrənməyə kömək etmək;

- mətbuatın insanların qiymətləndirməsinə təsir etməsi;

- Sükut spiralı fenomeni-azlığın səsini təmsil edən mətbuat çoxluğu məcbur edir ki, özünü azlıq kimi hesab edib, öz sözlərini açıq, camaat qarşısında deməkdən çəkinsin;

- Kültivasiya etmək effekti, bu o zaman olur ki, bədii televiziya zor-gücü kütləvi təbliğ etməklə, siyasətçilərin manipulyasiyasına təsir göstərir.

İkinci fəslin ikinci yarımfəsli "***İnformasiya müharibəsinin aparilmasi forma və vasitələri"*** adlanır. Daxili və xarici mütəxəssislərinin fikrinə görə informasiya müharibəsində media vasitəsi ilə aşağıdaki formalarda psixoloji təsir formaları mövcuddur: psixoloji informasiya; psixogen; psixoanalitik; neyrolinqvistik; psixotrop; psixotropon. Yarımfəsildə bunların hər biri barədə məlumat verilir, praktik misallar gətirilir.

Qeyd edilir ki, insan o məzmunlu fikirləri qəbul edir ki, o fikirlər onun prinsipləri ilə səsləşir. Bu zaman mənimsəmənin seçimli olmasından söhbət gedir. İstənilən insanı onun nəzərləri ilə toqquşmayan yeni materiallar cəzb edir və bu zaman insan (ya şüurlu,ya da şüursuz olaraq) yeni informasiyalara zidd olan hər şeydən qaçır. Bundan başqa, əgər onun əlində bir tərəfdən isə bu xəbərləri inkar edən xəbərlər varsa, onda da belə effektə nail olmaq olar. Çünki rəqibin informasiyanı qəbul etməmək hissi insana qalib gəlir.

İnformasiya müharibəsində başlıca təsir obyektlərini aşağıdakı kimi göstərmək olar:

*Sxem 2.3: İnformasiya müharibəsində başlıca təsir obyektləri:*




İkinci fəslin üçüncü yarımfəsli ***"İnformasiya təhlükəsizliyi problemi və Azərbaycanda informasiya təhlükəsizliyinin təminati"*** adlanır.

Bildiyimiz kimi, «İnformasiya» anlayışı indiki dövrdə geniş və hərtərəfli istifadə olunur. Bu anlayışdan istifadə edilməyən bilik sahəsini tapmaq qeyri mümkündür. Elmi biliyin, informasiyanın həcmi, mütəxəssislərin hesablamalarına görə, hər 5 ildə 2 dəfə artır. Bu XXI əsrin "informasiya əsri" olduğu deməkdir.

Müasir dövrdə informasiya cəmiyyətdə əsas strateji resursa çevrilmiş, informasiya sahəsinin rolu getdikcə daha da artmaqdadır. İnformasiya sahəsi informasiyanı, informasiyanın infrastrukturunu, informasiyanın toplanılması, formalaşdırılması, yayılması və istifadəsini, həmçinin bu zaman ortaya çıxan ictimai münasibətlər sisteminin tənzimlənməsi subyektlərini özündə ehtiva edir.

İnformasiya sahəsi cəmiyyətin həyatında sistemyaradıcı bir amil olaraq ölkənin siyasi, iqtisadi, müdafiə və s. kimi əsas təhlükəsizliyinin vəziyyətinə fəal təsir göstərir. Hər bir cəmiyyətin milli təhlükəsizliyi, informasiya təhlükəsizliyinin təmin olunmasından çox asılıdır və müasir texniki tərəqqi dövründə bu asılılıq daha da artmaqdadır.

İnformasiya cəmiyyətinin formalaşması informasiyalaşdırma prosesi ilə müşayiət olunur. Bu proses zamanı insan fəaliyyətinin bütün

sahələrində yeni texnologiya və vasitələr fəal şəkildə tətbiq edilir və bütün bunlar belə deməyə əsas verir ki, informasiyalaşdırma bəşəriyyətin inkişafında həqiqətən də artıq həlledici rol oynayır və informasiya cəmiyyətindən obyektiv olaraq yan keçmək mümkün deyildir.

İnformasiya təhlükəsizliyi həm də hər bir vətəndaşın və ya ictimai qrupun öz mövqe və maraqlarına uyğun olaraq, KİV vasitəsilə azad şəkildə informasiya axtarmaq, almaq və onu yaymaq imkanına nə dərəcədə malik olması ilə müəyyən edilir. KİV bu funksiyanı şəxs, cəmiyyət və dövlət arasında vasitəçi, cəmiyyətin öz maraqlarını müdafiə etməsi üşün yaratdığı alət və ictimai fikrin formalaşdırması vasitəsi kimi yerinə yetirir. Cəmiyyətin təhlükəsizliyi ona təhrif edilən, uydurulan və ya idarə olunan informasiya verilib-verilməməsindən olduqca asılıdır. Eyni zamanda kütləvi informasiya azadlığına zəmanət verilmiş vətəndaş cəmiyyətində şəxsin qanuni hüquqları, cəmiyyətin və dövlətin konfidensial informasiyanın qorunması üzrə maraqlarına ciddi riayət olunmalıdır.

İnformasiyanın cəmiyyətdən gizlədilməsi, müəyyən sosial qüvvələrin mənafeyi naminə hadisələrin qeyri-obyektiv işıqlandırılması, cəmiyyət üçün həyati əhəmiyyətli informasiyaların ictimaiyyətə vaxtında çatdırılmaması, etibarsız və yanlış informasiyanın təqdim olunması, qəsdən dezinformasiya və s. kimi, KİV-in fəaliyyətində cəmiyyətdə qeyri-sabitlik yaradan proseslərin dərinləşməsinə və mənəvi dəyərlərin parçalanmasına şərait yaradan neqativ ənənələr milli təhlükəsizliyə, bütövlükdə cəmiyyətin təhlükəsizliyinə real təhdidlər törədir.

Bu gün ölkəmizdə, informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı rəsmi dövlət səviyyəsində vacib addımlar atılır. Prezident İlham Əliyev dəfələrlə informasiya və kommunikasiya texnologiyaları sektorunun neftdən sonra ikinci vacib sahə olduğunu dəfələrlə bəyan edib. “Bu günə qədər ölkəmizdə İKT-nin inkişafı ilə bağlı müxtəlif dövlət proqramları qəbul olunub. “Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın (2003-2012-ci illər)” qəbul edilməsi bu istiqamətdə atılan önəmli addım oldu. Milli Strategiyanın gerçəkləşməsi məqsədilə “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı” (Elektron Azərbaycan)” qəbul və icra olundu. İKT-nin

inkişafı ilə bağlı ortaya qoyulan siyasi iradə qısa müddətdə öz bəhrəsini verməyə başladı"[1].

İnformasiya münasibətlərinin və proseslərinin durmadan inkişafı informasiya sahəsində yeni münasibətlər sisteminin – informasiya təhlükəsizliyinin təminatı sisteminin, informasiya hüququnun yaranmasını tələb edir[2]. Azərbaycanda bununla əlaqədar olaraq bir sıra qanunvericilik aktları və digər hüquqi sənədlər qəbul edilib: "Cəmiyyətdə liberal dəyərlərin, demokratikləşmə prosesinin dərinləşməsi, həmçinin fikir plüralizmi, söz və məlumat azadlığının güclənməsi media qurumlarının müstəqilliyini, sərbəst fəaliyyətini şərtləndirən mühüm amillər olmuşlar. ... qanunveicilik təkmilləşdirilmiş, onun hüquqi-normativ bazası qabaqcıl dünya və Avropa standartlarına uyğunlaşdırılmış, müasir şəraitə və bazar iqtisadiyyatının tələblərinə cavab verən qaydalar, fəaliyyət normaları müəyyənləşdirilmişdir"[3].

Azərbaycan Respublikasında da iqtisadi və mədəni həyatın sürətlə kompyüterləşməsi prosesi gedir. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın (2003-2012-ci illər)" (17 fevral 2003-cü il), "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" (21 oktyabr 2005), "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" (11 avqust 2010), "Azərbaycan Respublikasının ərazisində DVB-T rəqəmsal televiziya yayım sisteminin tətbiqi və inkişafı Proqramı"nın (10 fevral 2011), "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) haqqında" və s. sənədlərin təsdiqi və burada qarşıya qoyulmuş tapşırıqların icrasının təmin edilməsi ilə əlaqədar respublikada, xüsusilə də regionlarda internet xidmətlərinin genişləndirilməsi və ölkə ərazisində fəaliyyət göstərən bütün internet provayderlər üçün eyni şəraitin – şəhərlərarası telefon kanallarından ödənişsiz istifadəyə şəraitin yaradılması kompyüterləşmə prosesini daha da genişləndirib.

---

[1] Cəfərov A. Azərbaycanda İKT-nin inkişafı. "Zaman" qəzeti, Bakı, 2011, 24 noyabr
[2] Mazanlı İ. İnformasiya sahəsində yeni münasibətlər sistemi. URL: http://www.justice.az/index.php?action=view&id=26&module=newsmodule&src=%40random4412ca952a2ad
[3] Mehdiyev R. Ə. Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. "Azərbaycan" qəzeti, 2009, 2 oktyabr

Azərbaycanda ən yüksək səviyyədə informasiya təhlükəsizliyi probleminə diqqətlə yanaşılması, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bu məsələyə birbaşa toxunması da əyani şəkildə sübut edir. Prezident, çıxışının sonunda informasiya təhlükəsizliyi probleminin ölkəmiz üçün son dərəcə actual və vacib məsələ olduğunu vurğulayıb: "*Bir məsələyə də toxunmaq istəyirəm. Bu da hesab edirəm ki, indiki zamanda çox aktualdır: informasiya təhlükəsizliyi. Biz enerji, ərzaq təhlükəsizliyi haqqında geniş danışırıq. Bu, çox vacibdir. İnformasiya təhlükəsizliyi də indiki dövrdə çox vacibdir...*

*Bizə qarşı informasiya müharibəsi aparılır. Bu, həqiqətdir. Mən buna tam əminəm, bu barədə iki fikir ola bilməz. Bu informasiya müharibəsinin aparılması işində, əlbəttə ki, ilk növbədə, erməni lobbisi öz fəallığı ilə seçilir. Azərbaycanı qaralamaq, Azərbaycan reallıqlarını danmaq, Azərbaycanı geridə qalmış, antidemokratik ölkə kimi dünyaya təqdim etmək cəhdləri, ilk növbədə, erməni lobbisinin çirkin əməllərindən qaynaqlanır*"[1].

Dissertasiyanın üçüncü fəsli **"KİV-də informasiya ilə manipulyasiyanın ictimai rəyə təsir sahələri"** adlanır və üç yarımfəsildən ibarətdir. Fəsildə KİV-də informasiya ilə manipulyasiyada ictimai rəyə təsir sahələri tədqiqat predmetinə çevrilir.

***"Medianın informasiya siyasətinə və dövlətlərarası münasibətlərə təsiri"*** adlanan birinci yarımfəsildə bildirilir ki, cəmiyyətin idarə olunması üçün ən sərfəli vasitə informasiyadır. Dünyanın iri media korporasiyalarının həyata keçirdiyi siyasətin əsl mahiyyəti ayrı-ayrı dövlətləri nəzarətdə saxlamaqdır. Nəticədə cəmiyyətin standart kriteriyalar əsasında idarəsi gerçəkləşir. İstiqamətlənmiş informasiya axınına düşən insan tədricən öz düşüncə tərzindən uzaqlaşaraq aldığı informasiyanın təsirilə düşünməyə başlayır. Bütün bunlar sübut edir ki, müasir dünya üçün ən təhlükəli silah informasiyadır. Yalnız informasiya müharibəsindən qalib gələn dövlətlər dünya informasiya bazarına sahib çıxacaq.

---

[1] Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda çıxışı. URL: http://ict.az/az/index.php?option=com_content&task=view&id=2288&Itemid=122

*Sxem 3: İnformasiya ilə manipulyasiyada başlıca alətlər*




KİV-in inhisarlaşması prosesi nəticəsində müşahidə olunan ilk yenilik kapitalın təmərküzləşməsidir. Nəticədə şirkətlərə gələn gəlirin mənbəyini müəyyənləşdirmək mümkün olmur. İnhisarın möhkəmlənməsinin nəticəsində bir çox ölkələrdə informasiya üzərində nəzarəti beynəlxalq informasiya agentlikləri və media korporasiyalar ələ keçirir. İnhisar yaradan media korporasiyaları xarici kapitalın çaldığı havanı oynamağa məcbur qalır. Bu zaman kütləvi informasiya vasitəsi xarici qüvvələrin təsiri altında qalan ölkənin suverenliyi məsələsi sual altına düşür.

İnformasiyanın inhisarlaşması dedikdə istər-istəməz mənbəyi heç də hər zaman bəlli olmayan maliyyə dəstəyi haqqında düşünməli oluruq. Üstəlik nəzərə almaq olar ki, müasir media hakim dairələrin əlində ideoloji fikir yaratmaq, siyasi kursu həyata keçirmək üçün ən təsirli vasitədir. Bu gün heç kəsə sirr deyil ki, bütün media korporasiyalar, qəzet trestləri müəyyən oliqarxların əlində cəmləşib.

KİV-də gedən inhisarlaşmanın nəticəsi artıq açıq-aşkar meydana çıxır. Aşağıdakı xüsusiyyətlər informasiya bazarının bir qrup şəxslərin əlində olduğunu sübut edən faktorlardır:

1. Müstəqil mətbuat orqanlarının sayının getdikcə azalması;
2. Kütləvi informasiya vasitələri ilə transmilli korporasiyalar arasında sıx əlaqələrin meydana çıxması;
3. Hökumət dairələrinin medianın fəaliyyətinə göstərdiyi müdaxilələr;

4. Ölkənin KİV sisteminə mənbəyi və milli mənsubiyyəti bəlli olmayan kapitalın axması.

KIV-də inhisarlaşma problemi barədə danışarkən ayrı-ayrı iri dövlət strukturlarının da informasiya bazarına təsiri və eləcə də, müxtəlif KİV-ləri təsir altında saxlaması probleminə də diqqət çəkmək lazım gəlir. Bu zaman dövlət strukturları təkcə fəaliyyətdə olan informasiya vasitələrini öz təsir dairələrinə almır, eyni zamanda, media bazarına birbaşa öz nəzarətlərində olan media orqanlarını da daxil edirlər. Rəsmi strukturlar istər dövlətlərarası münasibətlərə, istərsə də informasiya siyasətinə media korporasiyalardan heç də az təsir göstərmirlər və hətta korporasiyaların özünə də müəyyən təzyiq rıçaqlarından istifadə etməklə nüfuz etməyi bacarırlar.

Media orqanlarına təsiretmə və ideoloji rəhbərlik müxtəlif yollarla həyata keçirilir:

a) iri qəzet-nəşriyyat konsernlərində, trestlərdə, informasiya agentlikləri, press-sindikatlar və müstəqil media orqanlarında maliyyə tərəfdən iştirak etməklə;

b) dövlət təbliğatını yürüdən media orqanları üzərində nəzarətlə;

c) böyük biznes dairələrinin informasiya-təbliğat strukturlarına və eləcə də coxsaylı qeyri-hökumət təşkilatlarına bilavasitə rəhbərlik etməklə;

d) iri media orqanlarında aparıcı rəhbər vəzifələri tutmaqla;

e) media orqanlarının fəaliyyətində son dərəcə önəmli olan reklam biznesi vasitəsi ilə maliyyələşdirməklə.

***“Sosial jurnalistikada manipulyasiya problemi”*** adlanan ikinci yarımfəsildə sosial şəbəkələr və eləcə də sosial mediada manipulyasiya problemi tədqiqat predmeti olaraq götürülür.

Artıq İnternet həm ənənəvi jurnalistikaya, həm də yeni tip jurnlistikaya - İnternet KİV - ə yeni informasiya mənbələrini təqdim edir və yeni tip - Sosial medianın bazası rolunu öz üzərinə götürmüş olur.

Bildiyimiz kimi, jurnalistika sosial fəaliyyət sahəsi kimi sivil cəmiyytin əsaslarını formalaşdırır. İnformasiya cəmiyyətində KİV sosial strukturun ən vacib elementi kimi çıxış edir.

Jurnalistikanın ənənəvi növləri ilə yanaşı, sosial media özünəməxsus özəlliklərə, funksiya və peşəkar texnoloji xüsusiyyətlərə malikdir ki, bütün bunlar yeni tipologiyanın ortaya çıxması barədə fikir yürütməyimizə imkan verir. Sosial media informasiya iş prosesini, eyni zamanda yayım prinsiplərini dəyişdirməklə, əslində yeni tip jurnalistikanın simasını müəyyənləşdirməkdədir. Sosial mediada

auditoriya özü, xəbərin istehlakçısına çevrilir və birbaşa, xəbərin hazırlanması prosesində və çatdırılmasında iştirak edir. Bu gün yeni jurnalistikada, jurnalist «kommunikativ auditoriya meneceri» şəklində çıxış edir və auditoriyanı, ictimaiyyəti öyrənir, orada nə baş verdiyini izləyir.

Sosial jurnalistika auditoriyanı təkcə baş vermiş hadisələrlə bağlı məlumatlandırmır, eyni zamanda müxtəlif məsələlərlə bağlı fikir mübadiləsi aparılmasına da geniş imkan tanıyır. Və əslində bununla da insanlar və sosial strukturlar arasında münasibətlərin tənzimləyicisi kimi çıxış edir. Sosial media KİV-in digər növlərindən daha artıq dərəcədə ətrafa qulaq asmaq və onu anlamaq imkanı tanıyır.

Sosial media 4-cü hakimiyyət funksiyasını yerinə yetirən KİV-in sosial nəzarət imkanlarını daha da genişləndirir və müəyyən mənada cəmiyyətin də bu nəzarət prosesində iştirakını təmin etmiş olur.

Ümumiyyətlə sosial medianın müsbət yönləri çoxdur. Lakin bəzi problemlər də var ki, onların həlli bu gün aktualdır.

Sosial mediada mənəvi dəyərlər və etika problemi də bu gün özünü qabarıq şəkildə göstərməkdədir. Jurnalistin peşə etikası ənənəvi kütləvi informasiya vasitələrində önəm verilən məsələlərdən biridir. İnternet - şəbəkə jurnalistikasında və sosial mediada KİV etikası tamamilə fərqli baxış tələb edir. Qərb təcrübəsində internet jurnalistləri üçün aşağıdakı prinsiplər ayırd edilir:

- müzakirə və diskussiya forumlarından, şəbəkə xəbərlərindən və ya bloqlardan məlumat götürərkən, jurnalist olduğunuzu bildirin və məqsədinizi açıqlayın
- unutmayın ki, jurnalist istinad etdiyi qaynaqları mütləq göstərməlidir. Məlumat qaynağının kimliyini dəqiqləşdirməmisinizsə, ehtiyatı əldən buraxmayın
- internetdən topladığınız məlumatla bağlı mümkün məhdudiyyətlərə hörmətlə yanaşın.

Üçüncü yarımfəsil ***“Dini sahədə informasiya ilə manipulyasiya və onun təsir istiqamətləri”*** adlanır. Qeyd etmək lazımdır ki, din sahəsində də informasiya texnologiyalarından təbliğat və təsiretmə mexanizmi kimi istifadə edilir. Bu zaman müxtəliv informasiya kanallarından geniş şəkildə istifadə edilməsinin şahidi olmaqdayıq. Məsələn, Vatikan xristianlığın katolik məzhəbinin təbliği və geniş yayılmasını təmin etmək üçün kütləvi informasiya və kommuniksiya kanalları üzərində son dərəcə geniş və çoxşahəli şəbəkə qurmağa müvəffəq olub.

İnformasiya texnologiyaları əsri, insan həyatının bütün sahələrinə sürətlə müdaxilə etməkdədir. Din ilə interaktiv sahənin qarşılıqlı olaraq biri-biri ilə çulğalaşması isə daha artıq dərəcədə özünü göstərir.

Müxtəlif rəsmi və qeyri-rəsmi dini konfessiyaların yüzlərlə saytı, inanclı insanlar üçün forumlar, dini KİV-in eletkron versiyaları, mütəxəssis dinşünasların bloqosferası – bütün bunlar internetin bu gün din sahəsənə hansı dərəcədə nüfuz etdiyinin göstəriciləridir. Artıq «internet-kilsə» (internet church), «kiberdindarlar», «kiberdin», ruh üçün interaktiv məkan (interactive soul space), chat room, newsgroup, mailing list kimi internet təchizatlarından dini təbliğat vasitəsi kimi istifadə edilməsi halları müasir günümüzün adi hallarına çevrilməkdədir[1].

İnternet bu gün və böyük ehtimal ki, sonra da söz azadlığı tarixində analoqu olmayan azad müzakirə məkanı olaraq qalacaq. Bu isə öz növbəsində müxtəlif dini axın və cərəyanlar üçün azad, ilahi rəqabət funksiyasını daşımaqdadır. Bir tərəfdən, onların söz azadlığına çətin ki, kimsə müdaxilə edə bilsin. Digər tərəfdən onların rəqiblərinə də kimsə mane ola bilməz[2].

İnternet inanclı istifadəçilərdə bir çox hallarda onların mənəvi baxışlarına uyğun gəlməyən informasiya axınının çoxluğumüəyyən mənada qorxu yaradır. Lakin bu gün aparıcı dini konfessiyaların rəhbərləri interaktiv şəbəkənin vacibliyini və orada aktiv iştirak etməyin əhəmiyyətli olduğunu vurğulamaqdadırlar. Məsələn Vatikan, II İoann Pavelin qismində katolikləri yeni informasiya texnologiyalarından qorxmamağa çağıraraq, məsələ ilə bağlı rəsmi mövqeyini ortaya qoyub: «Yeni texnologiyalardan qorxmayın! Dünya qarşıdurmasından çəkinməyin! Öz zəifliklərinizdən və uyğunsuzluqlarınızdan qorxmayın!». Bu ifadələr II İoann Pavelin 21 fevral 2005-ci il, sosial kommunikasiyalar günündə etdiyi apostol müraciətində yer alıb.

Dini təbliğat aparmaqda maraqlı olan konfessiyalar, multimedia mədəniyyəti ilə böyümüş insanların diqqətini cəlb etmək üçün ilk növbədə, müasir kütləvi informasiya vasitələrinin özəlliklərinə diqqət yetirməli, İnterneti anlamağa çalışmalıdırlar.

---

[1] Menicocci M. La Rete dele Religioni, in www.storiadelmondo.com/33/religioni.pdf in storiadelmond, n.33, marzo 2005

[2] Mayer J.-F. Religious movements and the internet: The new frontier of cult controversies. In Religion on the internet: Research Prospects and promises, Amsterdam, London, and the New York. Elsevier Science, 2000, p. 270

Dinin internetə nə qədər nüfuz etdiyini anlamaq üçün, məşhur Google axtarış sistemində dini terminlərdən birini – “Allah”, “God”, “İslam” və ya “Christ”, “Judaizm” – yazmaqla axtarış vermək kifayət edər. Bir neçə saniyə içində axtarış sistemi, yarım milyarda yaxın müxtəlif onlayn internet mənbələrinin adlarını monitorda əks etdirir.

İtaliyalı müəlliflər Çeçi və Restellinin də qeyd etdiyi kimi, internet bu gün dini saytlarla aşıb-daşır. Bütün bu məlumat və informasiya ümmanının içində həm müsbət, həm də mənfi münasibətləri özündə əks etdirən müxtəlif yanaşmalarla tanış olmaq mümkün olur.

İslam dininə gəldikdə isə, onu demək mümkündür ki, xristianlarla müqayisədə müsəlmanlar hələ internetin imkanlarından tam yararlanmasalar da, son dövrlərdə bu istiqamətdə xeyli inkişaf müşahidə edilməkdədir. Müsəlmanlar da öz tərəfdarlarını, dünyanın müxtəlif guşələrində yaşayan din qardaşlarını tapmaq, onlarla ruhi söhbətlər və fikir mübadilələri aparmaq üçün artıq internetdən geniş istifadə etməkdədirlər. Məsələn, İtaliyanın Milan şəhərində yerləşən baş Məscidin axundu Əl Şaik Əbd ər-Rəhman «Panorama Online» elektoron xəbər portalına müsahibəsində bildirir ki, «İnternet müsəlman qardaşları aralarındakı məsafə fərqlərindən asılı olmayaraq biri-birinə birləşdirən son dərəcə xeyirli bir ləvazimatdır. Dualar məsciddə və inanclı insanların qəlbində qalır, internet isə, kommunikasiyanın ən böyük vasitəsidir». İtaliya statistika bürosunun məlumatına görə, www.islam-online.it İtaliya saytına gündəlik olaraq 100 min istifadəçi daxil olur və İtaliya internet məkanında ən çox giriş edilən dini saytların ilk onluğuna daxildir.

Son onillikdə müsəlmanlara və İslama aid Qərb Kütləvi İnformasiya Vasitələrində nəşr olunmuş yazıları daha dərindən nəzərdən keçirsək, məlum 11 sentyabr terror hadisəsindən sonra münasibətin daha sərt məcra daşımasının şahidi ola bilərik. Əgər əvvəllər İslam daha çox gerilik və kobudluqla əlaqələndirilirdisə, indi qərbin «IV hakimiyyəti» bu mübarək dini terrorizm, fundamentalizm və müharibə konteskstində səciyyələndirir. Bu gün dünya müsəlmanları mass-mediada İslamın həqiqi mahiyyətini təhrif edən, dezinformasiya və saxtakarlıqlarla dolu olan bir kampaniyanın şahidi olmaqdadır. Heç də düşünmək lazım deyil ki, bütün bu təbliğat İslam dini, mədəniyyəti və ənənələri ilə tanış olmayan qərb kütləsinə yönəlib. Fikrimizcə, post-xristian çərçivəsində tərbiyə almış qərb «obıvatel»i heç də bu kampaniyanın başlıca hədəfi deyil. Əsas zərbə gücü əslində, öz dini ilə az tanış olmuş, lakin özünü

İslam dininin nümayəndəsi sayan «ənənəvi müsəlmanlar»a və qərb mədəniyyətinin ciddi təsirinə məruz qalmış sadə insanlara yönəlib.

Qərb kütləvi informasiya vasitələrinin bu qədər aqressiv, hətta bəzən təhqiredici münasibəti bir sıra səbəblərlə izah oluna bilər. İslam haqqında məlumatsızlıq bu səbəblərdən ən başlıcasıdır. Qərbdə İslamı və şəriəti müəyyən qədər öyrənməyə çalışan, bu dinin tarixi ilə maraqlanan, səthi olsa belə Quran yazılarını oxumuş barmaqla sayılacaq qədər az jurnalist tapmaq mümkündür. Bütün bunlar barədə müəyyən qədər məlumatı olan yeganə qrup insan isə şərqşünaslardır. Lakin burada da onu nəzərə almaq lazımdır ki, qərbdə şərqşünaslıq elmi kolonial hədəflərin həyata keçirilməsi üçün yaradılmış bir vasitə idi. Bu səbəbdən də İslamın öyrənilməsinin əsas səbəbi həqiqəti bilmək deyil, əksinə bu dinə qarşı mübarizəni daha effektiv təşkil etməkdən ibarət idi. Əfsuslar ki, şərqşünasların məsələyə bu cür siyasiləşmiş baxışı məhz sonralar, kütləvi informasiya vasitələrində İslama olan münasibətin əsasını təşkil etdi.

Dissertasiya işinin IV fəsli "**Azərbaycana qarşı aparılan informasiya müharibəsində manipulyasiya halları**" adlanir və beş yarımfəsildən ibarətdir. Fəsildə Azərbaycana qarşı aparılan informasiya müharibəsi problemi və informasiya ilə manipulyasiya halları araşdırılır, ayrı-ayrı yarımfəsillərdə problem üzrə başlıca parametr və istiqamətlər müəyyənləşdirilir və təhlil edilir.

Fəslin ***"Azərbaycan internet mediasına xaricdən edilən təsir istiqamətləri"*** adlanan birinci yarımfəslində internet media üzərindən edilən təsirlər və manipulyasiya halları araşdırılır, problem konkret misallar əsasında təhlil edilir.

Bildirilir ki, hazırkı dünya geosiyasətində informasiya və təbliğatın beynəlxalq ictimai rəyə təsir imkanları genişdir. İndi bir ölkənin başqa dövlətin ərazisində mövcud informasiya sistemlərini nəzarət altına alması və ya idarə etməsi yalnız onun hərbi və milli təhlükəsizlik məsələlərinə təsirlə yekunlaşmır. Bu, həm də yerli ictimai rəyin kənar təsirlərə məruz qalmasına və ictimai rəyin yönləndirilməsinə, ölkənin idarəçilik sisteminin pozulmasına və iflic olmasına səbəb ola bilər. Mütəxəssislər bildirir ki, xarici texnologiyanın mövcud gücü ilə hazırda ayrı-ayrı ölkələrin daxili idarəçilik sistemləri arasındakı rabitə əlaqələrini nəinki kəsmək və pozmaq, hətta bu sistemə girərək, dezinformasiya yaymaq yolu ilə onların fəaliyyətini yönəltmək və sarsıtmaq mümkündür. Dünyada bəzən ayrı-ayrı qurumlar müasir informasiya kommunikasiya texnologiyalarının imkanlarından istifadə

edərək, beynəlxalq internet şəbəkələrində, bu və ya digər ölkələrin ərazilərində və "etibarlı mənbə" adı altında xüsusi dezinformasiya yayır, dövlət qurumlarını, vətəndaşları və bütövlükdə ictimaiyyəti çaşdıran məqsədli fəaliyyət həyata keçirirlər. Bu da həmin ölkələrin daxili sabitliyini, idarəetmə orqanlarının ahəngdar fəaliyyətini pozur ki, nəticədə milli təhlükəsizliyə xarici müdaxilə üçün əlverişli şərait yaranır. Və bu zaman da xarici qüvvələr fürsəti əldən vermirlər və "daxili intizamı bərpa etməkdə yardım etmək" adı altında öz ölkələrinin mənafeyinə uyğun hərəkət edirlər. Məsələn, bu gün bəzi Qərb dairələrinin elektron kəşfiyyat və xüsusi əməliyyatlar yolu ilə bir çox Şimali Afrika və ərəb dövlətlərində həyata keçirdiyi, dövlətlərin öz vətəndaşları və cəmiyyətləri üzərindəki nəzarətini zəiflətməyə yönəlmiş müəyyən addımları 90-cı illərin əvvəllərində müxtəlif qüvvələr tərəfindən Azərbaycanda da həyata keçirilmişdir. Həmin illərdə ölkə müstəqilliyini yenicə əldə etmişdi. Bütün sahələrdə boşluq və çatışmazlıqlar aydın bir şəkildə özünü göstərirdi. Azərbaycanın o dövrkü informasiya və təbliğat vəziyyətinin təhlili göstərir ki, dövlətin informasiya təhlükəsizliyi, demək olar, tamamilə xarici amillərin təsiri altında idi. Milli teleradio və mətbuat vasitələrinin fəaliyyəti zəif olduğundan və bütün ölkə ərazisini əhatə edə bilmədiyindən, o zaman ictimai rəyin formalaşmasında və idarə edilməsində Rusiya, Türkiyə və İranın, habelə beynəlxalq transmilli KİV-lərin rolu açıq-aşkar üstünlük təşkil edirdi. Və hətta bu teleradio və mətbuat vasitələri xalqda müəyyən istiqamətlərdə meylliliklər də yaratmışdı.

Ən vacib məqamlardan biri, internet üzərindən bir çox portallada və eləcə məlumat-axtarış sistemlərində Azərbaycanla bağlı həqiqətlərin təhrif edilməsi, eləcə də tarixi, siyasi anlamda bir çox məlumatların qəsdən manipulyasiyaya məruz qalması hallarıdır.

"Google" şirkətinin məhsulu olan "Google Earth"ın Azərbaycan ərazisini təhrif etməsi barədə dəfələrlə bildirilib. Ümumiyyətlə, son dövrlərdə "Google" Azərbaycanla bağlı bir sıra yanlışlıqlara yol verir. Bu tip təhrif etmə halları əsasən Azərbaycan ərazilərinin (məsələn, Qarabağ və Naxçıvanın) mütəmadi olaraq Ermənistan ərazisi kimi göstərilməsindən ibarət olur. Bu kimi halları aradan qaldırılması məqsədi ilə, Azərbaycanın rəsmi hökumət dairələri tərəfindən müraciət edilməli, həmçinin link, mənbə göstərməlidilər ki, Azərbaycanın real xəritəsi budur və bundan sonra əsas kimi yalnız bu xəritədən istifadə edilsin.

Eyni məqamları "Wikipedia" barəsində də qeyd etmək mümkündür[1]. 2001-ci ildə fəaliyyətə başlayan "Wikipedia"nın biliklərin toplandığı nəhəng baza kimi yüksək reytinq qazandığı məlum həqiqətdir. Bu gün Vikipediya dünyanın ən populyar 10 saytı sırasına daxil olub. 2009-cu ildə Vikipediya ensiklopediyası İnternetdə fəaliyyət göstərən 230 milyon sayt arasında müraciətlərin sayına görə birinci yeri tutub. Vikipediyanın populyarlığının əsas səbəbi onun dinamik olmasıdır. Yəni digər ensiklopediyalarda son hadisələr haqqında məlumat əldə etmək mümkün deyil. Vikipediyada isə hər hansı bir hadisə haqqında informasiya artıq hadisənin baş verdiyindən bir neçə dəqiqə sonra ensiklopediyaya daxil edilir. Hər ay dünyanın ən böyük ensiklopediyası olan Vikipediyaya 275 mln. İnternet istifadəçisi tərəfindən 4 mlrd. müraciət olunur. Bu gün 270 dildə fəaliyyət göstərən Vikipediyadan istifadə texnologiyası müxtəlif sosial sahələr üçün nəzərdə tutulmuş yeni informasiya rusursu bazasıdır. Bir çox ölkələrdə Vikipediya virtual ensiklopediyası mütəxəssislərin və alimlərin stolüstü məlumat kitabçasına çevrilməkdədir. İstər adi İnternet, istərsə də adi KİV istifadəçisində istənilən hadisə haqqında fikir formalaşdırmaqda Vikipediyanın rolu əvəzolunmazdır.

Beləliklə, Azərbaycanın media və informasiya məkanına xarici kütləvi informasiya vasitələrindən edilən müdaxiləni aşağıda təqdim etdiyimiz sxemlə bu formada təsvir etmək mükündür:

*Sxem 4.1: Azərbaycanın media və informasiya məkanına edilən təsirlər*




[1] Vikipediya. Açıq ensiklopediya. URL: http://az.wikipedia.org/wiki/Ana_S%C9%99hif%C9%99

İkinci yarımfəsil ***"Ermənistanla informasiya müharibəsi və media manipulyasiyanın başlıca təsir istiqamətləri"*** adlanır. Dissertasiyanın bu hissəsində Ermənistanın ölkəmizə qarşı yürütmüş olduğu informasiya müharibəsi və media manipulyasiya faktları sadalanır, onların əsasında problem geniş şəkildə şərh edilir.

Qeyd edilir ki, Azərbaycana qarşı ən aktiv informasiya müharibəsi aparan dövlət, təbii ki, Ermənistandır._Bu informasiya savaşında erməni xüsusi xidmət orqanları tərəfindən yönləndirilən ana dilimizdə fəaliyyət göstərən və cəmiyyət içində xüsusi təxribatlar törətmək məqsədi ilə yaradılmış saytları özəlliklə vurğulamaq lazımdır. Qeyd etməliyik ki, həmin saytların bir çoxunun haradan qeydiyyatdan keçdiyi, ofisinin harada olduğu məlum deyil, bu media orqanları çox vaxt xarici domenlərlə fəaliyyət göstərirlər.

Bildiyimiz kimi, erməni diasporunun təbliğat işində media hər zaman xüsusi yeri ilə seçilib. Xarici ölkələrdə, xüsusilə, Birləşmiş Ştatlarda güclü maliyyə dəstəyinə malik olan erməni KİV-ləri geniş informasiya şəbəkəsinə malikdirlər. Qərb ölkələrində bu gün Ermənistanın xarici siyasət prioritetlərini dəstəkləyən və təbliğatını quran ingilis və erməni dillərində yayımlanan kifayət qədər qəzet və jurnallar, TV və radio proqramları mövcuddur. "Erməni məsələsi"nə həsr olunan yazılara böyük qonarar verməklə erməni qəzet və jurnalları qeyri-erməni jurnalistləri onlarla əməkdaşlığa cəlb etməyə çalışır və çox zaman buna müvəffəq olurlar. TV-də tez-tez erməni filmləri nümayiş etdirilir, radio proqramlarda erməni musiqisi səsləndirilir. Birləşmiş Ştatlarda nəşr edilən qəzet və jurnallardan aşağıda adları sadalananlar, demək olar ki, bütün ştatlara yayılır.

Ermənilərə məxsus olan "erməni məsələsi" və Qarabağdan yazan minlərlə kifayət qədər populyar bloqun olmasına baxmayaraq bu mövzuda yazan azərbaycanlı bloqerlərin sayı heç 100 ə çatmır. Ermənilər bloqların necə effektiv təbliğat vasitəsi olduğunu çoxdan anlayıb və tətbiq etməyə başlayıblar, hətta Ermənistanda və Qarabağda bu məqsədlə yerli internet istifadəçilərinə treninqlər də keçirilir, onlara "Ermənistan və Qarabağ barədə həqiqəti" necə yazmalı olduqlarını öyrədirlər. Bu işdə onlara Ermənistanın dövlət orqanları yaxından kömək göstərir (həmçinin xüsusi xidmət orqanları).

Ermənilər informasiya müharibəsində ən böyük zərbəni Azərbaycanın coğrafi, tarixi adlarına məxsus domen adları almaqla

vururlar. 1993-cü ildən başlayaraq bu günə qədər ermənilər Azərbaycan coğrafi adlarını özündə əks etdirən 10-larla domen adları alıblar[1].

Ermənilər müxttəlif orqanların media vasitələrindən də Azərbaycan əleyhinə informasiya manipulyasiyasından geniş şəkildə istifadə edirlər. Məsələn, 2015-ci ilin yanvar ayının 9-da belə bir təxribat xarakterli yazılardan biri, Azərbaycanın aparıcı informasiya agentliyi olan AzərTAC vasitəsi ilə ifşa edildi. Belə ki, İraq Ali İslam Şurasının rəsmi mətbu orqanı olan "əl-İstiqamə" qəzetində dərc olunmuş məqalədə 20 Yanvar faciəsində öldürülmüş azərbaycanlıların fotoşəkli guya bir əsr bundan əvvəl törədilmiş "erməni soyqırımı" qurbanları kimi təqdim olunub. Eyni fotoşəkil, həmçinin uydurma "erməni genosidi"nin yüz illiyinin qeyd edilməsi üçün yaradılmış təşkilatın Qahirə komitəsinin Facebook səhifəsində də yerləşdirilib. Vurğulamaq istərdik ki, bu fotoşəkil 1990-cı il yanvarın 20-də AzərTAc-ın fotomüxbiri Oqtay Məmmədov tərəfindən çəkilib və onun originalı agentliyin arxivində saxlanılır. Ermənilərin belə açıq-aşkar saxtakarlığa əl atması birinci dəfə deyil. Üzdəniraq erməni təbliğatçıları bundan əvvəl 1918-ci ildə Şamaxıda, Qubada azərbaycanlılara qarşı törədilmiş soyqırımların, 1992-ci il Xocalı qətliamının fotolarını qondarma "erməni genosidi"nin izləri kimi təqdim ediblər.

***"İran mediasının Azərbaycan internet mediasına təsir istiqamətləri"*** adlanan üçüncü yarımfəsildə bildirilir ki, media kanalları vasitəsi ilə qarşıya məqsəd kimi əslində Azərbaycanın informasiya məkanını nəzarətdə saxlamaqla, lazım gəldiyi təqdirdə Tehranın maraqlarına uyğun sosial zümrəni səfərbər etmək kimi strateji hədəflər qoyulur. Azərbaycanda İrana məxsus informasiya şəbəkələrinin fəaliyyətlərini diqqətlə araşdırdıqda bəlli olur ki, rəsmi Tehran çağdaş informasiya texnologiyalarının bütün vasitələrindən çox asanlıqla yararlanır. Belə ki, virtual radio, informasiya, təbliğat, televiziya kanalları, dərgi, qəzet, kitab yayını və digər kütləvi informasiya və kommunikasiya vasitələrindən geniş şəkildə istifadə edilməkdədir.

Hazırda İran Azərbaycan media məkanına təsir etmə fəaliyyətini əsasən iki istiqamətdə qurur: İranın öz daxilindən (məsələn, «Səhər» kanalı) və Azərbaycan içindən (əsasən internet informasiya portalları vasitəsi ilə).

---

[1] Əliyeva A. Ermənilərlə informasiya müharibəsi və yerevan.fm domeninin alış-verişi. URL: http://modern.az/articles/22517/1/

İranın Azərbaycan internet mediasına təsirini də iki istiqamətdə qruplaşdırmaq mümkündür:

1.Bilavasitə İranla əlaqələrə malik olan, Azərbaycanda adı çəkilən ölkənin təbliğatı ilə məşğul olan elektron mətbu orqanlar vasitəsilə təsir;

2.İranın ölkəmizdəki müstəqil və ya dövlət mətbuat orqanlarına ötürdüyü məlumatlar əsasında internet mediasına təsir.

İlk növbədə İran yönümlü internet mediasının nümunələrinə diqqət etdikdə görürük ki, adətən bu tipli media nümunələri bir növ ölkədə İranın təbliğatına üstünlük verməkdədirlər. Oxucuda elə təssürat yaradılır ki, guya, məqsəd İslami dəyərləri təbliğ etməkdir. Saytlarda təqdim edilən məqalə və xəbərlərdə "günü-gündən inkişaf edən, çiçəklənən İran İslam Respublikası" təssüratı yaradılır. Ölkənin Ali Dini Liderinin verdiyi qərarlar, İranın "Qərb və Amerikaya mətin bir şəkildə dirəniş göstərməsi", İranın hərbi gücünün artması, yeni hərbi texniki vasitələrin sınaqdan keçirilməsi barədə informasiyalara geniş yer verilir.

***"Rusiya mediasının Azərbaycan internet mediasına təsir istiqamətləri"*** adlanan dördüncü yarımfəsildə bildirilir ki, Rusiya-Azərbaycan əlaqələrinin tarixi uzun zamanı əhatə edir-Çarlıq sistemi daha sonra Sovetlər dönəmi. Və bu münasibətlər yalnız sərhəd qonşuluğu ilə bitmir. Azərbaycan zama-zaman bu ölkənin yönətimi altında olub. Bu gün də Rusiyanın Azərbaycana təsiri davam edir. Bu təsir Azərbaycanın yürütdüyü xarici siyasətdə müəyyən məqamlarda özünü göstərir.

Rusiyanın ölkəmizə hansı istiqamətlərdən basqı etdiyini qruplaşdırmaqla onu qeyd edə bilərik ki, ilk növbədə Rusiya Qarabağ münaqişəsindən siyasi bir alət kimi istifadə edərək Azərbaycana təsir göstərməyə çalışır.

Xüsusi qeyd etmək lazımdr ki, Azərbaycanın bəzi internet media nümunələri də Rusiya mətbuatına istinad edərək bəzən yanlış məlumatları auditoriyaya çatdırır və oxucularda səhv təsəvvür oyadır. Bələliklə biz, Rusiyanın təsiri ilə gerçəklərin təhrif olumuş, informasiyanın isə manipulyativ şəkildə cəmiyyətimizə təqdim edilməsinin şahidi oluruq.

Qonşu ölkənin mətbuatında Azərbaycanla bağlı birtipli münasibətə rast gəlmək çətindir. Bəzi mətbuat orqanları ölkəmiz haqqında həqiqətə uyğun və həmçinin ölkəmizin maraqlarına uyğun informasiyalar verdiyi halda, elə mətbu orqanlar, saytlar var ki, Azərbaycana qarşı var gücü ilə anti-təbliğat maşınını işə salır. Belə mətbuat nümunələrini səhifələrində ölkəmizlə bağlı "sifarişli" məqalələrə tez-tez rast gəlmək olar. Xüsusilə vurğulamaq gərəkir ki, Dağlıq Qarabağ problemi ilə bağlı həqiqəti əks

etdirməyən, qərəzli məqalələrin qələm sahiblərinin arxasındakı erməni himayədarlar xüsusi canfəşanlıq edirlər.

Fəslin sonuncu – beşinci yarımfəsli ***"Qərb mediasının Azərbaycan internet mediasına təsir istiqamətləri"*** adlanır. Bu yarımfəsildə ölkəmizlə bağlı Qərb mediasının təsiri ilə manipulyasiya halları konkret misallar əsasında araşdırma predmetinə çevrilir. Əslində Qərb mediasında, o cümlədən ABŞ KİV-də Azərbaycanla bağlı qərəzli yazıların mütəmadi şəkildə dərc edilməsi və eləcə də həmin yazıların ölkə mediasına sızdırılması halları adiləşib. Biz bu yanaşmaları təkcə Azərbaycanın ümumilli problemi olan Dağlıq Qarabağa münasibətdə görmürük, eyni zamanda digər sahələrdə də müşahidə etməkdəyik.

Son vaxtlar nüfuzlu Qərb nəşrləri tez-tez Qarabağ mövzusuna müraciət edirlər. Bir çox hallarda erməni diasporunun sifarişini yerinə yetirən xarici jurnalistlər Azərbaycanın işğal altındakı ərazilərinə səfərlər edərək erməni separatçılarını təbliğ edən yazılar hazırlayırlar. Azərbaycan XİN bu cür yazıların müəlliflərini "qara siyahı"ya daxil edir. Bir çox hallarda XİN-in bu tədbiri xarici KİV-ləri Qarabağ mövzusuna yenidən müraciət edib əsl həqiqətlərin nədən ibarət olduğunu yazmağa məcbur edib. Ümumiyyətlə, danışıqların heç bir nəticə vermədiyi və Ermənistanın münaqişə ətrafında "status-kvonu" mümkün qədər çox saxlayıb işğalı möhkəmləndirmək səylərini davam etdirdiyi bir vaxtda xarici mediada, xüsusən ingilisdilli mediada Qarabağa dair informasiya savaşı da qızışır. Əgər əvvəllər Azərbaycan erməni təcavüzü barədə reallıqları xarici auditoriyaya çatdırmaqda zəif görünürdüsə, son illər bu sahədə vəziyyət dəyişməkdədir. "The Economist"in Qarabağa bir-birinin ardınca iki sayında diqqət ayırması Qərb ictimaiyyətinin getdikcə təhlükəli xarakter alan bu münaqişədən narahatlığının göstəricisidir.

Ümumiyyətlə Qarabağla bağlı qərb mediasında münaqişə xəbərlərinin təqdimatı zamanı da, manipulyativ yanaşmanın şahidi oluruq. Məsələn, 2014-cü ilin noyabrın 12-də Azərbaycan hava məkanını pozan Ermənistan helikopterinin vurulması xəbəri dünyanın aparıcı media orqanlarının təqdim etdiyi başlıca xəbərlərdən biri olsa da, baş vermiş olay, tamamən manipulyativ istiqamətdə beynəlxalq auditoriyaya çatdırıldı. Xəbərlərin heç birində Ermənistanın hərbi təlimləri 20 ildən artıq bir müddətdə işğal altında saxladığı Azərbaycan ərazilərində keçirdiyini dilə gətirilmədi. Və bununla da əslində, baş vermiş hadisənin mahiyyəti sapdırıldı. Xəbər Azərbaycanın Ermənistana hərbi güc nümayişi hadisəsi kimi təqdim edilərək, mahiyyətcə son dərəcə ciddi təhrifə uğradılmış oldu.

Qərb mediasının Azərbaycanla bağlı həqiqətlərin təhrif edilməsi istiqamətində mövzu olaraq seçdiyi məqalalardan biri də Azərbaycanda söz və mətbuat azadlığı sahəsidir. Qərəzli yanaşma bu sahədə də özünü ən çılpaq şəkildə göstərməkdədir. Təbii ki, bu kimi məqalələrə operatib şəkildə reaksiya verilməlidir və unutmaq olmaz ki, belə qərəzli yanaşmalar ölkəmizin beynəlxalq imicinin korlanmasına hesablanmış xarici basqılar olaraq qiymətləndirilməlidir. Qeyd etmək lazımdır ki, Azərbaycanla bağlı xaricdə dərc edilən yazılar bəzən bilərəkdən təhrif edilmiş tərcümə ilə də ölkə saytlarında təqdim edilirlər. Nəticədə məqalədə irəli sürülən fikirlər ciddi şəkildə dəyişikliyə məruz qalır, qeyd edilən məqamlar tamamən əks anlam ifadə ediləcək qədər manipulyasiyaya məruz qalırlar.

Qərb mətbuatında bəzi hallarda Azərbaycanda keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərlə bağlı da manipulyativ xarakterli yazılara rast gəlmək mümkündür. Məsələn, ölkəmizin "Eurovision 2011" beynəlxalq mahnı müsabiqəsində qalib gəlməsi və növbəti il beynəlxalq yarışın Bakıda təşkil edilmsi ilə bağlı məqalələr buna əyani sübutdur. Diqqət cəlb edən məqam odur ki, "Eurovision 2012" mahnı müsabiqəsi ilə bağlı Azərbaycana qarşı səslənən fikirlərdə daha çox qərəzə rast gəlinir. Bəzi ekspertlər isə hesab edir ki, burada Azərbaycanın müsəlman bir dövləti olaraq "Eurovision 2012" mahnı müsabiqəsini keçirməsi də az rol oynamır.

Dissertasiyanın sonunda tədqiqatın əsas qənaətlərini ümumiləşdirən "**Nəticə**" verilmişdir. Qeyd edilmişdir ki, bu gün informasiya müharibəsi silahlı müharibələr qədər təhlükəli və həlledici rola malikdir. Kütləvi informasiya vasitələri, o cümlədən, mətbuat informasiya müharibəsində çox zaman hansısa sosial qrupa, yaxud dövlətə qarşı silah kimi istifadə olunur. Media işçisi fəaliyyətinin öncə mənsub olduğu cəmiyyətə, xalqa xidmət etməyə yönəldiyini unutmamalıdır. Bu səbəbdən, informasiya hücumlarına qarşı cəmiyyətin informasiya təhlükəsizliyinin qorunmasında KİV-in üzərinə böyük məsuliyyət düşür. İnsanların düzgün məlumatlandırılması ilə yanaşı, milli maraq və mənafeləri nəzərə almaqla KİV cəmiyyətin informasiya təhlükəsizliyinin qorunmasında önəmli xidmətlər göstərə bilər.

İnformasiya təhlükəsizliyinin qorunması ideoloji, mənəvi-psixoloji əhəmiyyət daşıyır. Sosial-siyasi sabitliyi, milli birliyi təhlükə qarşısında qoyan zərərli ideyaların, təxribat xarakterli informasiyaların yayılmasının qarşısının alınması dövlətin təhlükəsizliyi açısından böyük önəm kəsb edir.

Ölkədə kütləvi informasiya vasitələrinin bütün növləri- telekanallar, teleradiolar, internet televiziya və radioları, çap mətbuatı, onlayn qəzet və jurnallar fəaliyyət göstərir. Və informasiya təhlükəsizliyi məsələsində ölkə KİV-lərinin üzərinə böyük məsuliyyət düşür. Lakin bəzi hallarda respublikadakı bir sıra mətbu orqanlar bilmədən, yaxud məqsədli şəkildə ölkəmizə qarşı yönələn informasiya müharibəsinin aktiv iştirakçısına çevrilirlər. Belə media qurumları xaricdəki anti-Azərbaycançı dairələrin, erməni lobbisinin "beşinci kolonu" funksiyasını yerinə yetirmiş olur. Halbuki, kütləvi informasiya vasitələrinin əsas vəzifəsi cəmiyyətə obyektiv, qərəzsiz informasiyanı çatdırmaqla yanaşı, vətəndaşları hər cür təxribat və dezinformasiya ilə bağlı xəbərdar etmək, ictimai şüuru möhkəmləndirmək, milli mənafelərə xidmət etməkdir. Bu səbəbdən də, Azərbaycanda istər onlayn fəaliyyət göstərən xəbər agentliklərinin, radio və televiziyaların, istərsə də müxtəlif yayım tezliklərində fəaliyyət göstərən televiziya və radioların, çap mətbuatının, eləcə də, digər media qurumlarının üzərinə əhalinin düzgün məlumatandırılması ilə bağlı mühüm məsuliyyət düşür. Bu məsuliyyət Azərbaycan vətəndaşlarının geniş informasiya əldə etmək imkanlarının təmin edilməsi ilə bərabər, cəmiyyətin informasiya təhlükəsizliyinin qorunmasından, ictimai şüurun təxribat məqsədli informasiya hücumunun qurbanına çevrilməsinin qarşısının alınmasından ibarətdir.

Ümumiyyətlə araşdırma zamanı gəldiyimiz nəticə bundan ibarətdir ki, ölkəmizinj internet mediasına olan manipulyativ təsirləri minimuma endirmək üçün iki istiqamətdə maarifləndirmə işinin aparılması olduqca vacibdir. Bunu cədvəl şəklində aşağıdakı kimi təsvir və təqdim edə bilərik:

*Sxem 5: İnformasiya ilə manipulyasiya hallarından necə qorunmalı?*



Bu mövzunu araşdırarkən belə bir ciddi məqamla qarşılaşdıq ki, bu gün Azərbaycanda ölkəmizdən başqa digər maraqlı dövlətlərin mənafeyinə xidmət edən xeyli sayda internet media nümunəsi fəaliyyət göstərir. Ümumiyyətlə ölkəmizin internet media məkanında informasiya manipulyasiyasının iki istiqamətdə aparıldığının şahidi olduq:

a) Maraqlı güclərin xaricdəki informasiya kanallarında ölkəmiz əleyinə hazırlanan manipulyativ informasilar vasitəsi ilə təsir;

b) Ölkəmizin öz daxili internet məkanında yaradılmış informasiya portalları vasitəsi ilə dövriyəyəyə buraxılan manipulyativ informasilar vasitəsi ilə təsir.

Apardığımız araşdırmalar, əldə etdiyimiz nəticələrə əsasən, Azərbaycan cəmiyyətinin informasiya təhlükəsizliyinə olan hədələrin kökündə dayanan ən mühüm amillər içərisində aşağıdakıları göstərmək mümkündür:

- Azərbaycanın ərazi bütövlüyünə qəsb etmiş Ermənistanın və erməni lobbisinin ölkəmizə qarşı aqressiv mövqeyi, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ölkəmizə qarşı yürüdülən informasiya müharibəsi siyasəti;

- Azərbaycanın yerləşdiyi məkanda geostrateji maraqları toqquşan bəzi dövlətlərin ölkə daxilindəki sabitliyi pozmaq niyyətləri;

- Qloballaşma şəraitində ölkəyə daxil olan informasiya axınının bir qisminin yad ünsürlərin, zərərli və təhlükəli ideyaların daşıyıcısı olması;

- İnternet media vasitəsi ilə Azərbaycanda geosiyasi maraqları olan güclərin informasiyi manipulyasiyası üçün müxtəlif metodlardan istifadə etmələri;

- XXI əsrin əvvəllərində kibercinayətkarlığın bütün dünya üçün başlıca problemə çevrilməsi.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

**a) Monoqrafiya:**

**1.** Media imperiyası. Monoqrafiya. Bakı, «Nurlan» nəşriyyatı, 2012 (9 ç.v).

**b) Elmi məqalələr:**

1. ABŞ hərbi dairələrinin informasiya siyasəti // Dil və Ədəbiyyat. Beynəlxalq elmi – nəzəri jurnal, 2010, №3, s. 327-329.
2. Ortak Türk informasyon alanının formalaşdırılması, ortak uluslararası informasyon teşkilatının ve iletişim araçlarının kurulması perspektifi / 21 yüzyılda türk dünyası» uluslararası sempozyum bildiriləri (02-05 Aralık 2010 Lefke, KKTC). EkoAvrasiya, Ankara, Türkiye, 2011, s. 527-531
3. Media korporasiyaların dünya informasiya bazarına göstərdiyi təsir // Dil və Ədəbiyyat. Beynəlxalq elmi – nəzəri jurnal, 2011, №2, s. 338-339
4. Media korporasiyaların informasiya siyasətinə və dövlətlərarası münasibətlərə təsiri // Filologiya məsələləri, 2011, №8, s. 222-230
5. Влияние медиа-холдингов на информационную политику и межгосударственные отношения / Приволжский Научно-Исследовательский Центр. Проблемы и перспективы гуманитарной науки в контексте глобализации. Йошкар-Ола, Россия, 2011, с.. 70-77
6. Монополизация современных СМИ / Jurnalistikanın nəzəri konsepsiyaları və mətbuat təcrübəsi. I Beynəlxalq elmi-nəzəri konfransın materialları. Bakı Dövlət Universiteti, 2012, s. 91-102
7. Azərbaycanda informasiya təhlükəsizliyinin təminatı // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2013, №1, s. 134-142
8. Qloballaşma və qlobal informasiya məkanı // Dil və Ədəbiyyat. Beynəlxalq elmi – nəzəri jurnal, 2013, №3, s. 356-360
9. İnformasiya təhlükəsizliyi müasir dövrün başlıca problemlərindən biri kimi // Filologiya məsələləri, 2014, №4, s. 120-127
10. Социальная журналистика: положительные и отрицательные стороны // Молодой ученый. Ежемесячный научный журнал, Казань, Россия, 2014, №4, с. 528-530

11.Beynəlxalq jurnalistikada media vasitəsi ilə təsir problemi // Dil və Ədəbiyyat. Beynəlxalq elmi – nəzəri jurnal, 2014, №2, s.315-318

12.Qərb mediasında İslam dini ilə bağlı manipulyasiya // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Bakı Slavyan Universiteti 2014, №3, s.238-244

13.Marşall Maklyuenin informasiya müharibəsi anlayışı // Tağıyev oxuları. Bakı Slavyan Universiteti, 2014, №2, s. 142-146

14.Mediada dəyərlərin qorunması problemi və manipulyasiya amili // Dil və Ədəbiyyat. Beynəlxalq elmi – nəzəri jurnal, 2014, №4, s.275-277

15.The Characteristic Features of the Information War // MAGNT Research Report (ISSN. 1444-8939). 2015, Feb., Vol.3 (2), pp.1859-1863

16.Qloballaşma şəraitində KİV // Azərbaycan Dillər Universiteti. Elmi xəbərlər, 2015, №1, s. 22-29

17.Ermənistanın informasiya müharibəsinin başlıca parametrləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı Slavyan Universiteti, 2015, №1, s. 294-299

18.Dinin yayginlaştirilmasinda çağdaş bilgi teknolojileri (Vatikan öğrneği) // Niğde Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi. Türkiye, 2015, Cilt 8, № 2, s. 156-163

19.Rusiya KİV-nin Azərbaycan mediasına təsir istiqamətləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı Slavyan Universiteti, 2015, №2, s. 283-293

20.Azərbaycan mediasi qlobal informasiya məkaninda // Elmi xəbərlər. ADPU, 2015, №1, s.364-370

21.Azerbaycan'a karşı yürütülen bilgi manipulyasyonunun ve savaşının başlıca parametreleri // Akademik Bakiş. Uluslararası Hakemli Sosyal Bilimler Dergisi, 2015, № 52, s. 351-360

22.Qərb mediasında Azərbaycanla bağlı manipulyasiya problemi və internet məkanına təsiri // Sivilizasiya. Bakı Avrasiya Universiteti, 2015, №2, s. 99-108

23.Mass communication models in the Information War // Salmagundi Journal. Publisher Skidmore College, USA, 2016, №1, pp. 217-228

24.İran KİV-nin Azərbaycan mediasına təsir istiqamətləri // Elmi xəbərlər. Azərbaycan Dillər Universiteti, 2016, №1, s. 259-264

25.Azerbeycan internet medyasında bilgi manipülasyonu problemi: neticeler ve çözüm yolları // İletişim Çalışmaları Dergisi. Istanbul Aydın Üniversitesi, Türkiye, 2016, № 2, s. 117-126

26.Media korporasiyaların fəaliyyətində informasiya ilə manipulyasiya problemi / Müasir medianın yaradıcılıq prinsiplərini milli mətbuata tətbiqi yolları. III Beynəlxalq elmi-nəzəri konfransın materialları, 2017, s. 152-159

**В.З.Алиев**

## Информационная манипуляция в зарубежных СМИ и ее влияние на современные интернет-медиа Азербайджана

### Р Е З Ю М Е

В стремительно глобализирующемся современном мире, информация стала движущей силой системы международных отношений. При нынешнем мировом порядке в научно-теоретических и практических исследованиях масс-медиа часто встречаемся с мнением о том, что в наши дни именно информация формирует политику ведущих государств мира. Она непосредственно связана с жизнью общества, направляет внутреннюю и внешнюю политику, играет ключевую роль в осуществлении международных связей. Широкое распространение информационно-коммуникационных средств в мировом масштабе в последние годы еще более ускорилось, и привело к появлению интерактивных взаимоотношений между обществом и индивидуумом.

В современный период коренным образом изменилось развитие материально-технической базы с применением информационных войн и методов, используемые в передаче и обработке информации. В таких условиях уместно выражение "бытие определяет сознание".

Сегодня информационная война ведется также против Азербайджана. Наши масс-медиа повседневно подвергаются информационной манипуляции со стороны зарубежных СМИ, сталкиваются с угрозами безопасности национального информационного пространства. Именно этот фактор является очевидным показателем того, что данная тема в высшей степени актуальна и ее научная разработка весьма важна для нас.

Эту важность не раз подчеркивал в своих выступлениях Президент Азербайджанской Республики господин Ильхам Алиев. Так, в Заключительной речи на заседании Кабинета Министров, посвященном итогам социально-экономического развития в первом квартале 2012 года и предстоящим задачам (16 апреля 2012 г.), он говорил: «Хочу затронуть еще один вопрос. Считаю, что он сейчас также очень актуален. Информационная безопасность. Мы много

говорим об энергетической и продовольственной безопасности. Это очень важно. Но на нынешнем этапе информационная безопасность также очень важна. Считаю, что в этой области еще многое необходимо сделать…

…Против нас ведется информационная война. Это правда. Я в этом полностью уверен. Конечно же, в этой информационной войне своей активностью выделяется армянское лобби. Очернить Азербайджан, отрицать реалии Азербайджана, попытки представить миру Азербайджан как отсталой и антидемократической страной, в первую очередь, исходят от грязных деяний армянского лобби».

Несмотря на такую крайнюю актуальность и важность, данная тема до сих пор не являлась предметом особых научных исследований наших ученых. Данную работу можно считать первым шагом в этой области.

Диссертационная работа состоит из введения, четырех глав, заключения и списка использованной литературы.

Во введении обосновываются актуальность темы, ее новизна, теоретическая и практическая значимость, представлены особенности СМИ как социального института, обеспечивающего общество объективной и точной информацией.

В первой главе диссертации – «**Основные причины, породившие проблемы манипулирования информацией в XX веке**» – рассматриваются вопросы формирования глобального информационного пространства и коммерциализации в медиа-секторе и монополизации как основные причины, вызывающие проблему манипулирования информацией. В этой главе так же рассматриваются тема трансформации СМИ Азербайджана в глобальное информационное пространство.

Во второй главе - «**Проблема информационной войны и информационной безопасности в контексте информационной манипуляции**» **-** исследуются история и характеристика концепции информационной войны, формы ее ведения, рассматривается проблема обеспечение информационной безопасности Азербайджана.

В третьей главе – «**Сферы воздействия информационной манипуляции в СМИ на общественное мнение**» – исследуется влияние СМИ на информационную политику и межгосударственные отношения, также проблема манипуляции в социальной

журналистике, раскрывается проблема информационной манипуляции в религиозной сфере.

В четвертой главе – «**Факты манипуляции в информационной войне, направленной против Азербайджана**» – исследуются направления внешних влияний на интернет-медиа Азербайджана, рассматривается проблема информационной войны с Арменией и основные направления влияний медиа-манипуляции. Также проводится подробный анализ направлений влияния СМИ Ирана, России и Запада на интернет-медиа Азербайджана. Выдвигаемые положения конкретизируются на конкретных примерах.

В «Заключении» обобщаются основные положения научного исследования, прогнозируются перспективы развития анализируемых проблем, делаются необходимые выводы.

**V. Z. Aliev**

## Manipulation of Information in Foreign Media and its Impact on the Internet Media of Azerbaijan in Modern Period.

### Summary

In a rapidly globalizing world today, information has become a driving force of development in a system of international relations. In the present world order in the scientific-theoretical and practical studies of the mass media, we often encounter the fact that currently, in the leading countries of the world, namely information generates the world. Information is directly connected with the life of society, including the state, its domestic, foreign policy, and international relations. Wide dissemination of information and means of communication on a global scale even more accelerated and led to the emergence of interactive communication between society and the individual.

In the modern period, the development of material and technical basis radically changed with the applying of information warfare and the methods used in the transmission and processing of information. In such circumstances, the expression of "being determines consciousness" is appropriate.

Today information war is also conducted against Azerbaijan. Our media is exposed to daily manipulation of information by the foreign media, faces with threats of informational space security. Namely, all these factors are an indication of to what degree the topic is relevant and important for us. As Mr. Ilham Aliyev – the President of the Republic of Azerbaijan pointed out:"Information war is conducted against us. It is true. I am fully sure of this. Of course, the Armenian lobby allocates with its activity in this information war. Blacken Azerbaijan, deny the realities of Azerbaijan, attempts to present Azerbaijan as a world backward and undemocratic country, primarily on the basis of the dirty deeds of the Armenian lobby."

Up to the present day, in Azerbaijani media information security, as well as the problem of the manipulation of information in a complex shape is not the subject of scientific research. Western theorists systematically study the subject of information security, information warfare and manipulation over the past 20 years. Taking this into consideration the systematic research cannot be seen as a positive

moment for our country, which is in a state of war and face-to-face with the enemy. This theme is subjected to the military aggression by neighbouring states.

Exactly because of this reason, a large part related to Azerbaijan, is introduced into the scientific rotation for the first time on our part in the research work of the thesis.

The scientific novelty of the research lies in the study of the manipulation of information, to which internet media of Azerbaijan is exposed.

The thesis consists of an introduction, four chapters, conclusion and bibliography.

The actuality, novelty, theoretical and practical importance are settled in the introduction. The media features are presented as a social institution providing the society with objective and accurate information.

In the first chapter of the thesis - **"The Basic incentives which Give Rise to Problems of Manipulation of Information in the Twentieth Century"** – the problems of forming a global information space, commercialization in the media sector and monopolization are scrutinized as the basic conditions giving rise to a problem of manipulating of information. This chapter also discusses the theme of transformation of the Azerbaijani mass media into the global information space.

In the second chapter – **"The Problem of Information Warfare and Information Security in the Context of Manipulation of Information" -** the history, characteristics of concepts and forms of administration of information warfare are investigated and the problems of information security are viewed.

In the third chapter which is called **"Spheres of Influence on Public Opinion with Information Manipulation in the Mass media"** the impact of the media on information policy, and inter-state relations, as well as the problem of manipulation of social journalism are investigated. The problem of informational manipulation in the religious sphere is viewed.

In the fourth chapter under the title of **"Facts of Information Manipulation in the Information War against Azerbaijan"** the direction of external influences on the online media of Azerbaijan is investigated. The problem of information war with Armenia and main directions of the impact of media manipulation are viewed here. It also provides a detailed analysis on concrete examples of the direction of

media influence of Iran, Russia and the West on the online media of Azerbaijan. Extendable provisions are concretized by examples.

In the **"Conclusion"** summarizes the general thesis of the dissertation. In addition, indicates the outcome and future prospects of research.